YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
26 aprel 2025-ci il, şənbə
№ 070 (6898)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!



# Səmimi dostluq, etimad quruculuğu

Bax səh. 4



# Papa Fransisk xatirələrdə çox sadə, adi insanların ehtiyac və arzuları ilə yaşayan bir şəxs kimi qalacaq

**Prezident və birinci xanım Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı veriblər**

Bax səh. 2

# Uzunmüddətli əməkdaşlığın konsepsiyası

Bax səh. 2

# Avropa Azərbaycanın yeni nizamdakı statusunu təsdiqləyir



Bax səh. 3

## Bakı dünyanı birləşdirir

Asiya, Afrika, Latın Amerikası, Okeaniya bölgələrini özündə birləşdirən böyük coğrafiyanın - dünya ölkələrinin üçdə iki hissəsini əhatə edən Qlobal Cənubun vətəndaş cəmiyyətinin həyatında əlamətdar hadisə baş verəcək. Söhbət Qlobal Cənub QHT Platformasının təsis olunmasından gedir.

Təsis konfransı aprelin 28-29-da Bakıda keçiriləcək. Qlobal Cənub coğrafiyasına aid ölkələrin vətəndaş cəmiyyətlərini...

Bax səh. 5

## Dünya kosmik ailəsinin etibarlı üzvü

Azərbaycanın Kosmik Agentliyi (“Azərkosmos”) qlobal kosmik sənaye cəmiyyətinə inteqrasiyanı dərinləşdirməkdədir. Agentliyin rəhbər vəzifəsini icra edən Dunay Bədirxanov bildirib ki, ölkəmizin kosmik sənayesində dayanıqlı inkişaf templəri regional alyansda mövqeyimizin möhkəmlənməsinə səbəb olur...

Bax səh. 5

## Üçüncü qüvvələr regiondan çıxmalıdır

Azərbaycan Avropa İttifaqı ilə münasibətlərində daim beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı hörmət və bərabərhüquqluluq əsasında qurulan əməkdaşlığa üstünlük verib. Bu mövqe imzalanan sənədlərdə, diplomatik danışıqlarda və parlamentlərarası münasibətlərdə ardıcıl şəkildə əksini tapıb. Lakin ölkəmizin...

Bax səh. 6

## PKK silahı yerə qoyacaqmı?

Türkiyədə fəaliyyəti qadağan edilmiş və terrorçu təşkilat kimi tanınan PKK aprel ayının sonuna qədər özünü buraxmaq barədə qərar qəbul edəcək. Türkiyə mətbuatının yazdığına görə, Ədalət və İnkişaf Partiyasının (AK Parti) rəsmi nümayəndəsi Ömər Çelik jurnalistlərə bildirib ki, cari ay ərzində uzunmüddətli problemin...

Bax səh. 7



# Melani Colinin yanlış “ənənəsi”

Bax səh. 6

# Cənubi Asiya böyük müharibə astanasında...




Bax səh. 7

# Papa Fransisk xatirələrdə çox sadə, adi insanların ehtiyac və arzuları ilə yaşayan bir şəxs kimi qalacaq







## Prezident və birinci xanım Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı veriblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 25-də Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı veriblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını və birinci xanımı Azərbaycanda Katolik Kilsəsinin apostol prefekti, yepiskop Vladimir Fekete qarşıladı.

Azərbaycan Prezidenti və birinci xanım matəm kitabına ürək sözlərini yazdılar.

Sonra dövlətimizin başçısı və birinci xanım Vladimir Fekete ilə söhbət etdilər.

Roma Papası Fransisklə görüşlərini və onun Bakıya səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı qeyd etdi ki, Papa Fransiskin Heydər məscidində ölkəmizdə fəaliyyət göstərən dini icmaların nümayəndələri ilə görüşü insanlar arasında birliyin bərqərar olmasının vacibliyi ilə bağlı mesaj idi. Prezident İlham Əliyev Papa Fransiskin xatirələrdə çox sadə, adi insanların ehtiyac və arzuları ilə yaşayan bir şəxs kimi qalacağını dedi.

Birinci xanım Mehriban Əliyeva da öz növbəsində Papa Fransisklə görüşlərini məmnunluqla xatırladı.

Vladimir Fekete dövlətimizin başçısına və birinci xanıma başsağlığına görə minnətdarlığını bildirdi. O, Roma Papasının katolik kilsənin lideri kimi bir nümunə olduğunu dedi.

# Avropa İttifaqı Azərbaycanla münasibətləri daha da inkişaf etdirməkdə maraqlıdır

## Prezident İlham Əliyev Kaya Kallası qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib.

AZƏRTAC xəbər verir ki, Kaya Kallas Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində çox uğurlu və səmərəli əməkdaşlığın olduğunu vurğulayan qonaq ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini dedi.

O, nəqliyyat bağlantıları mövzusuna toxunaraq, bu xüsusda da çox mühüm regional bir dövlət olan və vacib geosiyasi məkanda yerləşən Azərbaycanın rolunun əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu dedi, Cənub Qaz Dəhlizinin 4 ildir fəaliyyət göstərərək Avropanın qaz təchizatında oynadığı əhəmiyyətli rola toxundu.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan artıq Avropanın 10 ölkəsini, o cümlədən Avropa İttifaqının 8 üzvünü qazla təchiz edir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan qaz təchizatının coğrafi əhatəsinə görə Avropa məkanını qazla təmin edən ilk ölkələrdən biridir.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Azərbaycanla Avropa İttifaqı arasında uğurlu və səmərəli dialoqun mövcud olduğunu deyən dövlətimizin başçısı bərpaolunan enerji sahəsində də əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, ölkəmiz Xəzərin Azərbaycan sektorunda zəngin külək enerji resurslarına malikdir. Dövlətimizin başçısı vurğuladı ki, eyni zamanda, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə bərpaolunan Transxəzər enerji dəhlizinin inkişaf etdirilməsində və Qara dəniz istiqamətində Gürcüstan, Rumıniya, Macarıstan, son dövrlərdə isə Bolqarıstanın da qoşulduğu layihələrin reallaşdırılmasında mühüm rol oynayır.

Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizlə Avropa İttifaqı arasında qazla yanaşı nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanlar var.

Söhbət zamanı, həmçinin Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasına dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində ikitərəfli əsasda addımların atıldığını və müzakirələrin aparıldığını qeyd etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# ATƏT-in Minsk qrupunun və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtı çoxdan çatıb

## Prezident İlham Əliyev ATƏT-in Baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də ATƏT-in Baş katibi Feridun Sinirlioğlunu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Feridun Sinirlioğlunu ATƏT-in Baş katibi vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi.

Feridun Sinirlioğlu təbrikə görə təşəkkürünü bildirdi. Qonaq Cənubi Qafqaz bölgəsinin ATƏT-in gündəliyində duran mühüm regionlardan biri olduğunu vurğuladı.

ATƏT-in Baş katibi Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətninin razılaşdırılması ilə bağlı əldə olunmuş nəticələrə görə təbriklərini çatdıraraq, iki ölkənin münasibətlərinin normallaşdırılması istiqamətində müzakirələrin aparıldığını qeyd etdi.

Qonaq ATƏT-in Azərbaycanla həyata keçirdiyi əməkdaşlıq layihələrinə toxundu.

Dövlətimizin başçısı keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həllində tam iflasa uğramış ATƏT-in Minsk qrupunun və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtının artıq çoxdan çatdığını deyərək, Ermənistan tərəfindən də bu xüsusda addımların atılmalı olduğunu bir daha qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hərbi və siyasi yollarla tam təmin etdiyini, bununla da ölkəmiz tərəfindən Helsinki Yekun Aktının, beynəlxalq hüququn norma və prinsiplərinin Cənubi Qafqazda təsbit edilməsinin təmin olunduğunu dedi.

Görüşdə Azərbaycan ilə ATƏT arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Uzunmüddətli əməkdaşlığın konsepsiyası

## Azərbaycan və Çin arasında imzalanan Birgə Bəyanat iqtisadi tərəfdaşlığı ən yüksək zirvəyə çatdıracaq

Cənubi Qafqazın lideri Azərbaycanla Asiyanın və dünyanın iqtisadi-siyasi güc mərkəzlərindən biri olan Çin arasında münasibətlər son illərdə ən yaxın dostluq zirvəsinə qalxaraq region üçün nümunəvi formalardan birinə çevrilib. Dünyada baş verən  yeni siyasi-iqtisadi proseslər və digər amillər, xüsusən də nəqliyyat-tranzit qovşaqlarındakı farqmentasiyalar, digər mühüm kommunikativ faktorlar hər iki ölkənin bir sıra ortaq baxış və strateji maraqlarını tamamlayır. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına (ÇXR) dövlət səfəri isə münasibətlərin tamamilə yeni keyfiyyət çalarlarını zənginləşdirən mühüm amil kimi səciyyələndirilə bilər.

**2030-cu ilə qədər hədəflər**

Səfər zamanı imzalanan “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” əhatə dairəsinə, siyasi və iqtisadi əhəmiyyətinə görə xüsusi strateji çəkiyə malikdir. Strateji məzmun və əhəmiyyəti ilə seçilən bu sənəd iki ölkə arasında uzunmüddətli gələcək əməkdaşlığın konsepsiyası hesab edilə bilər. Bəyanatın 3-cü maddəsi nəqliyyat-logistika zəncirlərində bərabərtərəfli əlaqələrin inkişafını və geniş regional hab alyansının qurulmasını təşviq edir.

Belə ki, tərəflər müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün “Bir kəmər, bir yol” təşəbbüsünün Azərbaycanın “İpək Yolunun dirçəldilməsi” dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşdırıb.

**“Bir kəmər, bir yol” konsepti üzrə niyyətlər**

Çinin müəllifi olduğu “Bir kəmər, bir yol” konsepti nəhəng nəqliyyat arteriyası kimi Asiyadan Avropaya genişşaxəli daşınma və ticarət qovşaqlarının coğrafi inteqrasiya körpüsüdür. Bu layihənin həmmüəllifləri kimi Çin və Azərbaycan uzun illərdir ki, iradəli siyasi addımlar ataraq bu kommunikasiyanı irəliyə aparır. 10 il əvvəl Pekin və Bakı nəqliyyat və tranzit sahəsində də əməkdaşlığın əsasını qoyaraq niyyətlərini ifadə edib. Prezident İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu”nun imzalanmasından sonra ölkəmiz bu marşrutda öz layiqli yerini alıb.



2019-cu ilin aprelində Pekində keçirilən 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edən Azərbaycanın dövlət başçısı Asiya ilə Avropa arasında körpülərin qurulmasına, gələcək rifaha xidmət edən nəqliyyat-logistika qovşaqlarına tinvestisiya yatırdığımızı bəyan edib. Azərbaycan Şərq-Qərb dəhlizi olan “Bir kəmər, bir yol” layihəsinin ən strateji halqası olan Trans-Xəzər (Orta Dəhliz) nəqliyyat dəhlizi ailəsinin fəal üzvü kimi son illər ərzində bu layihədə strateji rolunu və mövqeyini daha da möhkəmləndirib.

Azərbaycan Orta Dəhlizdə regional birliyi artırmaq və digər tərəfdaşları vahid kommunikasiya alyansına cəlb etmək üçün davamlı addımlar atıb, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və digər ölkələri də dəhlizdə infrastrukturlarını yeniləməyə təşviq edib. Bütün bunlar dəhlizdə iştirakçı ölkələr arasında daşınmaların dinamikasını və qarşılıqlı dövriyyələri intensiv yüksəldib. Xüsusən də Azərbaycanın Orta Dəhlizin axıcılığının yüksəlməsinə verdiyi töhfə Çinlə yükdaşınmaların həcmini son 2 ildə bir neçə də yüksəldib. 2024-cü ildə Azərbaycan və Çin arasında tranzit daşımalarının həcmi 86 faiz (378 min ton) artıb. Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı və tranzit potensialının artırılması məqsədilə həyata keçirilən genişmiqyaslı layihələr - Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və digər nəqliyyat dəhlizləri Çindən Avropaya və əks istiqamətə ən qısa və səmərəli marşrutu təşkil edir.

Orta Dəhlizin tərkib hissəsi kimi dəyərləndirilən Zəngəzur dəhlizinin reallaşması isə regionun nəqliyyat-kommunikasiya sisteminin bərpasının böyük perspektiv vəd etməklə, sülhə və təhlükəsizliyə xidmət göstərəcək, Çinin “Bir Kəmər, Bir Yol” proqramını tamamlayacaq.

**Ticari mübadiləni artıran təşviqlər**

Azərbaycan və Çinin imzaladığı Bəyanatın ən mühüm bəndlərindən biri də ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya mexanizminin əlaqələndirici və rəhbər rolunun gücləndirilməsidir. Komissiyanın ticarət, investisiyalar, “yaşıl enerji” və rəqəmsal iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsi, eləcə də ticari-iqtisadi sahədə ikitərəfli əməkdaşlığın yüksək keyfiyyətli inkişafına töhfə verməsi üçün əlavə addımlar atması nəzərdə tutulur. Bu məqsədlə iqtisadi-investisiya əməkdaşlığı üzrə İşçi qrupun yaradılması barədə qərar qəbul olunub. Məqsəd ikitərəfli ticari dövriyyələri daha da artırmaqdır.

Hazırda ölkələr arasında ticarət dövriyyəsi 4 milyard dollara yaxındır. 2024-cü ildə mal mübadiləsinin  həcmi 3 milyard 744 milyon dollar təşkil edib və Çin xarici ticarət balansında idxalın həcminə görə, Azərbaycanın birinci tərəfdaşı olub. 2025-ci ilin birinci rübündə ticari dinamika daha da artıb və ötən ilin eyni dövrünə nisbətən 37 faiz çoxalaraq 1,02 milyard dollar təşkil edib. Bu dinamika əmtəə dövriyyəsinin ilin sonunda 4 milyard dollara çatmasına əsas verir.

İmkanlar isə daha böyükdür. Bu məqsədlə tərəflər dayanmadan intensiv şəkildə iqtisadi dialoq və qarşılıqlı biznes tədbirləri təşkil edir, investisiya və ticari təşviqləri artıran təşəbbüslərlə çıxış edir. Bəyanatda qarşıya qoyulan prioritetlərin reallaşması isə iqtisadi mübadilənin 5 milyard dollara çatmasını təşviq edəcək.

Tərəflər iki ölkənin ticarət və iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitləri birgə yaratmaqla ekoloji təmiz və yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara qarşılıqlı çıxışını tədricən genişləndirmək niyyətindədirlər.

Tərəflər ticarət və investisiya sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün institusional zəmanətlərin yüksək səviyyəsinin təmin edilməsi məqsədilə azad ticarətə dair sazişlə bağlı danışıqlara başlamağa hazır olduqlarını ifadə ediblər.

Rəsmi Pekin, Çin Beynəlxalq İdxal Məhsulları Sərgisi, Çin İxrac və İdxal Məhsulları Yarmarkası, Çin Beynəlxalq Xidmətlər Ticarəti Yarmarkası, o cümlədən Çin Beynəlxalq İnvestisiya və Ticarət Forumu daxil olmaqla, Azərbaycanın Çində keçirilən böyük sərgi tədbirlərində fəal iştirakını alqışlayır, Azərbaycan tərəfindən Çin ərazisində açılan ticarət mərkəzləri və milli pavilyonlar platformasında, eləcə də Çin elektron ticarət şəbəkələrində tematik təqdimatların keçirilməsini və əlaqələrin qurulmasını dəstəkləyir.

**Yeni sərmayə portfeli nəyi əhatə edir?**

İqtisadi-ticari təşviqlərə dərin əsaslar yaradan hüquqi mexanizmlərdən biri də tərəflərin birgə sənaye sahəsində əməkdaşlığın daim dərinləşdirilməsi və sənayenin rəqəmsal transformasiyasını fəal şəkildə irəlilədilməsidir. Tərəflər neft-kimya, metallurgiya, tekstil sənayesi, əczaçılıq, maşınqayırma avadanlığı kimi sahələrdə iki ölkənin müəssisələrini kommersiya əsaslı əməkdaşlığın möhkəmləndirilməsində, dərinləşdirilməsində və genişləndirilməsində dəstəkləyirlər. Bütün bunlar qarşılıqlı investisiya portfellərinin də tərkibini böyüdəcək. Qeyd edək ki, Çin Cənubi Qafqazda ən çox sərmayələri Azərbaycana yönəldib, investisiyaların həcmi 1 milyard dollara çatıb. Eyni zamanda, Azərbaycan özü də potensial sərmayədar dövlət kimi Asiyanın maliyyə sektorunda öz mövqeyini gücləndirir və Dövlət Neft Fondunun investisiya portfelinin 2,1 milyard dolları Çinin maliyyə-investisiya sektorlarını əhatə etməkdədir.

Beləliklə, Bəyanatın iqtisadi xarakterli bəndləri Azərbaycanla Çin arasında davam edən dostluq münasibətlərinin iqtisadi ruhunu daha da möhkəmləndirəcək, hərtərəfli investisiya-ticari strateji tərəfdaşlığı yeni pilləyə yüksəldəcək.

***E.CƏFƏRLİ***

# Dünya şöhrətli alim

## Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 102-ci ildönümü tamam olur

Hər bir xalqın özünəməxsus ənənələri, fərqli həyat tərzi, identik milli xüsusiyyətləri var. Dünya şöhrətli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın timsalında biz Azərbaycan qadınlarının ümumiləşmiş obrazını görürük. Onun mənalı həyatı və fəaliyyəti qadınlarımızın zərifliyini və fədakarlığını təcəssüm etdirir.

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şərur rayonunun Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb.



Azərbaycan elminin və xalqımızın milli-mənəvi dəyərlərinin zənginləşməsinə özünün sanballı töhfələrini verən Zərifə xanım Əliyevanın anadan olmasının 102-ci ildönümü tamam olur.

Zərifə xanım Əliyeva səmərəli fəaliyyəti, fundamental axtarışları və əldə etdiyi nəticələri ilə Azərbaycan tibb elminə dünya şöhrəti qazandıran alimdir. Həkim olmağa qərar verən gənc Zərifə Əliyeva həyatını çətin və az öyrənilən sahəyə həsr edib. O dövrdə geniş yayılan traxoma infeksion xəstəliyi ilə effektiv mübarizə nəinki oftalmologiya elmi üçün, hətta bütünlükdə respublika üçün mühüm məsələyə çevrilmişdi. Göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini məhz traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr edib.

Ötən əsrin altmışıncı illərinin sonlarından etibarən Zərifə Əliyeva fəal həkimlik fəaliyyəti ilə məşğul olub. Gənc alimin həyatında 1968-ci ildən etibarən yeni bir səhifə də açılıb - o, peşə oftalmologiyasının problemləri ilə ciddi məşğul olmağa başlayıb. Diqqətçəkən məqam ondan ibarətdir ki, Zərifə xanım Əliyeva praktikadan nəzəriyyəyə keçid edib. Onu tez-tez müxtəlif təyinatlı istehsalatlarda görmək olardı. O, bir tərəfdən fabrik və zavodlarda çalışan sadə peşə sahiblərinin qayğısına qalır, eyni zamanda özünün müşahidələrini aparırdı. Buna görə də onun araşdırmaları kifayət qədər uğurlu alınıb. Zərifə xanım peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərini dünyada ilk araşdıran alimlərdən olub, əslində, elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub.

Zərifə xanım Əliyevanın elmi yaradıcılığının və praktiki fəaliyyətinin nəticəsi olaraq tibb elminə gətirdiyi yeniliklər hələ onun sağlığında respublikamızın sərhədlərini aşmışdı və Azərbaycan aliminə beynəlxalq səviyyədə böyük şöhrət qazandırmışdı. Belə bir faktı qeyd etmək yerinə düşər ki, Zərifə xanım Əliyeva "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H. Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edib.

O dövrdə ümumittifaq mükafatları müttəfiq respublikalardan olan alimlərə tək-tək hallarda verilirdi. Amma peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə Zərifə xanım Əliyeva keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatına - SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Z.Əliyeva həm də həmin mükafatla təltif edilən ilk qadın alim idi. Bütün bunlar onun elmi araşdırmalarının beynəlxalq səviyyədə də yüksək qiymətləndirilməsinə bariz sübutlardır.



Zərifə xanım Əliyevanın daha bir böyük məsuliyyəti respublikamızın o dövrdəki rəhbəri və sonralar keçmiş SSRİ-nin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinədək yüksələn Heydər Əliyevin həyat yoldaşı olmasında idi. Onlar bir-birinə dərin hörmət və sevgi əsasında ailə həyatı qurmuşdular. Xoşbəxtlik hakim kəsilən bu ailədə əsas yük, təbii ki, Zərifə xanımın üzərinə düşürdü. Lakin o, bu yükü çəkməkdən usanmırdı. İşin, elmi axtarışların həyəcanı, yorğunluğu ailədə əsla hiss olunmurdu. Övladları - Sevil və İlham Əliyevlər hər addımda Zərifə xanımdan qayğı görür, ondan gözəl tərbiyə, milli ruh alırdılar. Azərbaycana qələbələr qazandıran Prezident İlham Əliyevin milli təəssübkeşliyinin, vətənpərvərliyinin, sözün əsl mənasında azərbaycançı olmasının təməlində də məhz Heydər Əliyev - Zərifə Əliyevanın Ona ötürdükləri dəyərlər dayanır.

*Mübariz FEYİZLİ*

# Avropa Azərbaycanın yeni nizamdakı statusunu təsdiqləyir

## Rəsmi Bakı qlobal münasibətlər sistemində aparıcı rola malikdir

Azərbaycanın son beş ildə bölgədə yaratdığı reallıqlar tək Cənubi Qafqazla məhdudlaşmır - regional təhlükəsizliyin təmini yeni nizamda qlobal münasibətlərin təmərküzləşməsini də təmin edir. Xatırladaq ki, son dövrlərdə "kollektiv Qərb" daxilində yaranan çatlar xüsusilə Avropa kontingentinin diqqətini Şərqə doğru yönəldib. 2025-ci ilin əvvəlindən etibarən Avropanın şərq ölkələriylə, xüsusən də, yeni qlobal ticarət tranziti üzərində olan dövlətlərlə münasibəti fərqli "məcra" qazanır...

### Cənubi Qafqazın lideri, yeni siyasi reallıqların müəllifi...

Sammitin yekun sənədində bir diqqətçəkən məqam da var: "Biz, həmçinin bu layihələrin uğurla həyata keçirilməsi üçün Cənubi Qafqazda sülh və sabitliyin vacibliyi barədə razılığa gəldik". Bu fakt təsdiq edir ki, Qərb, xüsusilə Avropa bütün razılıqların, iqtisadi-siyasi anlaşmaların mərkəzində Cənubi Qafqazın, daha dəqiq desək regionun lider dövləti olan Azərbaycanın dayandığını etiraf edir. Son aylarda Avropa dövlətlərinin rəhbərlərinin Mərkəzi Asiyaya intensivləşən səfərləri sonrası səslənən bu fikir bir daha onu göstərir ki, Qərb bütün bu səfərlərin müsbət sonuclanması üçün başlıca yolların Azərbaycandan keçdiyini bilir və görür. Beləliklə, ilk iş Azərbaycan ilə münasibətlərə yenidən baxılmasıdır...

Bir daha təsdiq olundu ki, Azərbaycanın yürütdüyü milli maraqlara əsaslanan, müstəqil siyasət kursu ümumən Cənubi Qafqaz coğrafiyasına yeni bir sima qazandırıb. Artıq güc rıçaqlarından istifadə etməklə bölgədə "siyasi tərəzi"nin tərəfini ağırlaşdırmaq mümkün deyil - bu sırada Avropa İttifaqının adı xüsusi çəkilməlidir. Avropa Komissiyasının anti-Azərbaycan fəaliyyəti, qeyri-hüquqi müzakirələri, COP29-a qarşı aparılan kampaniya bunu deməyə əsas verir. Amma bu təzyiqlər heç bir nəticə vermədi. Ermənistanın silahlandırılmasında Avropa Sülh Fondu vasitəsilə oynanılan rol, Fransanın təhriki ilə əleyhimizə qəbul olunan qərarlar, Ermənistan ilə münasibətlərin normallaşması prosesində tutduğu mövqe quruma olan inamı və etimadı sarsıtdı - beləliklə də, Azərbaycan dövləti Aİ-ni ümumən normallaşma prosesindən kənarlaşdırdı.

### Bakı yeni enerji təminatçısı kimi...

Gələcək münasibətlərin inkişaf dinamikası isə daha çox Aİ-nin gələcək mövqeyindən asılı olacaq. Hələ ilin əvvəlində bəyan edilmişdi ki, qurum ölkəmizlə səmimi münasibətlər qurmağa çalışacaqsa, ikitərəfli əməkdaşlığın beynəxalq hüquq və milli maraqlar çərçivəsində yürüdülməsinə öz töhfəsini verəcəksə, Bakının da mövqeyi adekvat olacaq. Bu ilin yanvarında yerli telekanallara müsahibəsində Prezident İlham Əliyev demişdi ki, Azərbaycana və onun milli maraqlarına münasibət necə olacaq, bizim münasibət də elə belə də qalacaq.

Beləliklə, mesaj aydındır - Azərbaycan hər zaman bildirib ki, bizim Aİ üzvü olmaq kimi hədəfimiz yoxdur. Bununla belə, müasir dünyanın çağırışları və standartları daxilində əməkdaşlıq mümkündür - hətta son proseslər göstərir ki, bu Avropa üçün zəruridir. Azərbaycan Avropanın bir neçə ölkəsinin enerji təminatında fəal iştirakçıya çevrilib - Aİ üzvü olan dövlətlərə ixrac olunan qazın həcmi isə bir neçə dəfə artıb. Aİ ilə qarşılıqlı ticarət balansı da normaldır. Belə olan halda, Aİ ilə Azərbaycan arasındakı əməkdaşlıq sırf işgüzar müstəvidə tənzimlənməlidir. Aİ ölkəmizin daxili işlərinə qarışmadan, özünü regionda "hakim" statusunda görmədən ikitərəfli münasibətləri inkişaf etdirə bilər.



### Azərbaycan "açar dövlət" statusunda...

Nəzərə alınmalıdır ki, artıq nəinki Avropada, bütün qlobal mühitdə "dəngələr dəyişib". Kontingent dərk edir ki, düşdüyü bu ağır iqtisadi durumdan onları yalnız Şərq xilas edə bilər. Bu "xilas yolu"nun əsas açarlarından biri isə Azərbaycandır. Ölkəmiz ilə Çin arasında son bir neçə gündə imzalanan sənədlər, xüsusilə "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" Azərbaycanın bölgədəki rolunu və yerini bir daha təsdiqlədi. Çünki bu Birgə Bəyanat bir çox amillərin üzərinə işıq saldı:

*- Azərbaycan yeni nizamın gündəliyinin müəyyənləşməsində mühüm rola malikdir;*

*- Yeni ticari əlaqələr sisteminin vacib bir hissəsidir;*

*- Ticari tranzit xəttlərin ötürücülüyünü təmin edəcək ölkədir;*

*- Yeni münasibətlər sisteminin daha da irəliyə aparılması üçün Azərbaycanın bölgədə gördüyü işin çəkisi böyükdür;*

*- Azərbaycan stabilləşdirici rolunu daha da genişləndirir.*

Buraya həm Zəngəzur dəhlizi xəttinin perspektiv inkişafı, Qərb-Şərq əlaqələrində yeni şaxələndirmə siyasəti, bölgəsəl təhlükəsizliyin təminatı, hətta Yaxın Şərq istiqamətində təhlükəsizlik arealının formalaşdırılmasındakı rol da daxildir.

### Münasibətlərdə fərqli ştrixlər...

Qeyd olunan bu faktorlar isə Qərb dünyasında, xüsusilə Avropa kontingentində açıq şəkildə görülür və dərk olunur. Təsadüfi deyil ki, Aİ-nin yeni strukturlaşmasının ardından Azərbaycana qarşı münasibətdə fərqli ştrixlər hiss olunmağa başlayıb. Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın ilin əvvəlində Prezident İlham Əliyevə zəngi və telefon söhbəti zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, xüsusilə Transxəzər-Orta Dəhliz marşrutu üzrə daşımalar, Xəzər və Qara dəniz hövzələrini birləşdirən "yaşıl enerji" dəhlizinin yaradılması layihəsi, Azərbaycanın Avropa İttifaqına üzv ölkələrə qaz ixracı və enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsinin aparılması bunu deməyə əsas verir. Yeri gəlmişkən, dünən Avropanı təmsil edən iki fərqli təşkilatın - Aİ-nin və ATƏT-in rəsmi şəxsləri Prezident İlham Əliyev tərəfindən qəbul edilib. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd edib. O, nəqliyyat bağlantıları mövzusuna toxunaraq, bu xüsusda da çox mühüm regional bir dövlət olan və vacib geosiyasi məkanda yerləşən Azərbaycanın rolunun əhəmiyyətini vurğulayıb.

### Minsk Qrupu ləğv edilməlidir ...

Paralel olaraq Azərbaycanın bölgədə formalaşdırdığı yeni siyasi situasiya Qərbin Cənubi Qafqaza baxışında da korrektləri tələb edir. O baxımdan ki, artıq Cənubi Qafqazda "Qarabağ münaqişəsi" adlı kataklizm mövcud deyil - bu isə onu deməyə əsas verir ki, Avropanın konkret olaraq Azərbaycana və ya ümumən bölgəyə münasibəti bu keçmiş "münaqişə" üzərindən qurulmamalıdır. Eləcə də, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi, sülh təşəbbüsləri ikitərəfli mahiyyət daşıyır - Qərb bu prosesdə yer almaq üçün can atmamalıdır. Bu prizmadan yanaşıqda bir daha təsdiqlənir ki, Azərbaycan bütövlükdə,yeni münasibətlər sistemi formalaşdırıb. Məsələn, ATƏT-in tarixə qovuşmuş "Minsk qrupu"nun fəaliyyət(sizliy)i bu xüsusda önə çıxır. Xatırladaq ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin tənzimlənməsi üzrə birbaşa vasitəçi qismində tanınan "Minsk qrupu" illər boyu yalnız məsələnin həlli ilə bağlı hər hansı qəti addımı ilə seçilməyib - hətta işğalçı ilə işğala məruz qalmış arasında bərabərlik işarəsi qoyaraq hüquqları pozulan azərbaycanlıları görməzdən gəlib. 44 günlük müharibə ilə başa çatan "münaqişə" həm də ATƏT-in Minsk qrupunu tarixin arxivinə yolladı. Artıq tərəflər vasitəçisiz bir ortamda razılaşmanın bir addımlığındadırlar. Son reallıqlar bu quruma ehtiyacın qalmadığını faktiki olaraq ortaya qoyur. Regionda sülhün və təhlükəsizliyin təmini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi isə ikitərəfli xarakter daşıyır. Son təmaslar da sübut etdi ki, ikitərəfli, vasitəçisiz danışıqlar daha effektivdir. Beləliklə, "Minsk qrupu" kimi fəaliyyətsiz strukturların saxlanılması heç bir aktuallıq kəsb edə bilməz. Azərbaycan Prezidenti İlham Əliyev aprelin 25-də ATƏT-in Baş katibi Feridun Sinirlioğlunu qəbul edərkən də keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həllində tam iflasa uğramış ATƏT-in Minsk qrupunun və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtının artıq çoxdan çatdığını deyərək, Ermənistan tərəfindən də bu xüsusda addımların atılmalı olduğunu bir daha qeyd edib. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hərbi və siyasi yollarla tam təmin etdiyini, bununla da ölkəmiz tərəfindən Helsinki Yekun Aktının, beynəlxalq hüququn norma və prinsiplərinin Cənubi Qafqazda təsbit edilməsinin təmin olunduğunu deyib.

*P.SADAYOĞLU*

# İlham Əliyevin Çinə dövlət səfəri dünya mediasının diqqətində...










Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri, onun Çin lideri Si Cinpinlə görüşü dünya mediasında geniş işıqlandırılıb. Belə ki, Çinin milli xəbər agentliyi Sinxua, Çin Kommunist Partiyasının rəsmi nəşrlərindən olan "Jenmin Jibao" və "Global Times" qəzetləri, Çin Media Qrupuna daxil olan Çin Mərkəzi Televiziyası (CCTV), Çin Beynəlxalq Radiosu, CGTN telekanalı, habelə nüfuzlu "China Daily" qəzeti, digər qəzet və xəbər saytları Prezident İlham Əliyevin səfəri barədə bir neçə dildə çoxsaylı materiallar yayıb. Çin mediası Prezident İlham Əliyevin Çinin Sinxua agentliyinə məxsusi müsahibəsindən xəbərlər hazırlayaraq oxucularına təqdim edib.

**"Çin lideri ilə Azərbaycan Prezidentindən strateji tərəfdaşlıq mesajı"**

Qardaş ölkə Türkiyənin "Anadolu" agentliyinin "Azərbaycan və Çin arasında hərtərəfli strateji tərəfdaşlıq bəyanatı qəbul edilib" başlıqlı xəbərində dövlətimizin başçısının Çindəki təmasları çərçivəsində iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulmasına dair Birgə Bəyanat və bir sıra sazişlər, o cümlədən vizadan azadolma sənədinin imzalandığı qeyd olunub. DHA-nın "Çin lideri ilə Azərbaycan Prezidentindən strateji tərəfdaşlıq mesajı" adlı xəbərdə Si Cinpinin "Pekin Bakı ilə qarşılıqlı hörmət və ədalətə əsaslanan əməkdaşlıqda maraqlıdır" fikri vurğulanıb. "CNN Türk" telekanalının Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Çinə səfəri ilə bağlı xəbərində Si Cinpinin "Çin Azərbaycan ilə münasibətlərə strateji və uzunmüddətli perspektivdən baxır və inkişaf etdirir" fikri vurğulanıb, Pekinin Bakı ilə hərtərəfli əməkdaşlıqda yeni səhifə açmağa hazır olması faktı qabardılıb.

"Haber Global" telekanalı, "İhlas" xəbər agentliyi Azərbaycan Prezidentinin Çinə səfərinə dair xəbərlər yayıb. "Milliyet" qəzeti "Azərbaycan Prezidenti və Çin Xalq Respublikasının Sədrindən "strateji tərəfdaşlıq" mesajı" adlı xəbərində iki ölkə arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanıb, vizadan azad edilməsi haqqında sazişin imzalandığı diqqətə çatdırılıb. "TRT Avaz", NTV və digər media qurumları da dövlətimizin başçısının Çin səfərini diqqətdə saxlayıb.

**"Səfər iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsinə xidmət edir"**

Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri Rusiya mətbuatında da geniş işıqlandırılıb. TASS agentliyinin məqaləsində Çin liderinin "tarif və ticarət müharibələri bütün ölkələrin qanuni hüquq və maraqlarına zərər vurur, çoxtərəfli ticarət sistemini sarsıdır və dünya iqtisadi nizamını pozur" sözləri sitat gətirilir. Bildirilib ki, Si Cinpin BMT Nizamnaməsi və beynəlxalq hüquq prinsiplərinə əsaslanan beynəlxalq nizamın qorunması üçün Çinin Azərbaycanla birgə işləməyə hazır olduğunu vurğulayıb. "Nezavisimaya qazeta"nın Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfərinə həsr olunmuş geniş analitik məqaləsində səfərin iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsinə xidmət etdiyi qeyd olunub.

"Vestnik Kavkaza" nəşri isə dövlət başçılarının Pekində keçirilmiş görüşünün yekunu olaraq qəbul edilmiş Birgə Bəyanat barədə ətraflı məqalə dərc edib. Qeyd olunub ki, görüşdə BMT mərkəzli dünya nizamının və BMT Nizamnaməsinin prinsiplərinə əsaslanan beynəlxalq nizamın dəstəklənməsi diqqət mərkəzində olub. "Kommersant" qəzeti Çin Sədri Si Cinpinlə Azərbaycan Prezidenti İlham Əliyev arasında görüşü işıqlandırıb, danışıqların iqtisadi və ticarət aspektlərinə diqqət yetirib. Məqalədə tarif müharibələrinə qarşı kəskin çıxış edən və onların "qlobal iqtisadi nizamı və ticarət sistemini pozduğunu, ölkələrin hüquq və maraqlarını pozduğunu" qeyd edən Çin liderinin bəyanatlarından sitat gətirilir. "Böyük Asiya" informasiya portalı yazıb ki, Çin Xalq Respublikasının Sədri Si Cinpinlə Azərbaycan Prezidenti İlham Əliyevin apardıqları danışıqların əsas nəticəsi iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulması olub. Nəşrdə vurğulanır ki, səfər çərçivəsində 20-dən çox sənəd, o cümlədən qarşılıqlı vizasız gediş-gəliş haqqında saziş imzalanıb. "RİA Novosti" Çinin Sədri Si Cinpinin Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqları zamanı səsləndirdiyi bəyanatlarla bağlı məqalə dərc edib. Bildirilib ki, Çin lideri ticarət müharibələrinin dağıdıcı nəticələri barədə xəbərdarlıq edib. "EADaily" agentliyi Pekində Azərbaycan Prezidenti İlham Əliyev və Çinin Sədri Si Cinpin arasında keçirilən danışıqların yekunları üzrə imzalanmış Birgə Bəyanatın əsas məqamlarını işıqlandırıb. Azərbaycanın təklif etdiyi sülh gündəliyinə Çinin güclü dəstəyi diqqət mərkəzində olub. Bəyanatda tərəflərin əks-məhsuldar adlandırdıqları qarşıdurma xarakterli geosiyasi oyunlar pislənilib.

**"FarodiRoma": "Azərbaycan və Çin strateji tərəfdaşlıq sazişi və bir çox başqa sənədlər imzalayıb"**

"Reuters" agentliyinin "Çin Sədri Si Pekində Azərbaycan lideri ilə görüşür" adlı xəbərində səfərin detallarından söz açılıb.

İtaliyanın "FarodiRoma" nəşri "Azərbaycan və Çin strateji tərəfdaşlıq sazişi və bir çox başqa sənədlər imzalayıb" adlı xəbərdə geniş məqalə dərc olunub. Məqalədə iki ölkə arasında imzalanan sənədlər, o cümlədən Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat barədə məlumat verilib. "Nova.news" və "4coffshore.com" onlayn nəşrləri Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Azərbaycan ilə Çin şirkətləri arasında enerji sahəsində bir neçə əməkdaşlıq sənədinin imzalandığını yazıb.

Küveytin KUNA agentliyi, Gürcüstanın "Primetime.ge" nəşri, "1tv" və "Ajara tv" kanalları dövlətimizin başçısının Çinə səfəri, xüsusən də iki ölkə arasında imzalanan sənədlər haqqında ətraflı məlumat yayıblar.

İranın "Tasnim" agentliyinin mövzu ilə bağlı xəbərində qeyd olunur ki, səfər çərçivəsində imzalanan çoxsaylı sənədlər Bakı və Pekinin yeni dövrdə münasibətləri daha da inkişaf etdirmək və mövcud potensialdan hərtərəfli strateji tərəfdaşlıq çərçivəsində istifadə etmək əzmindən xəbər verir. ISNA agentliyi isə yazır ki, Çin Sədri Si Cinpin çərşənbə günü Pekində Azərbaycan lideri İlham Əliyevlə görüşüb və tərəflər Bakı ilə Pekin arasında hərtərəfli strateji əməkdaşlığın başlandığını elan ediblər. "Jahannews.com" nəşri Prezident İlham Əliyevin səfər öncəsi Sinxua agentliyinə müsahibəsində səsləndirdiyi fikirlərdən sitatlar gətirərək, Azərbaycan-Çin münasibətlərinin qədim tarixə və yaxşı ənənələrə söykənərək, yüksələn istiqamətdə inkişaf etdiyini vurğulayıb.

Cənubi Koreyanın "newsis.com" nəşri "Associated Press"ə istinadla Azərbaycan Prezidentinin Çində dövlət səfərində olduğunu yazıb.

Ukraynanın "Ukrinform" agentliyi, "Prabdatut", "Kurs Ukraini", "Ekonomiçni novinki" nəşrləri də dövlətimizin başçısının Çinə səfərinə dair bir neçə material yayıb, səfəri ətraflı şərh ediblər.

Rumıniyanın milli xəbər agentliyi AGERPRES, "Mediafax" özəl xəbər agentliyi, "News.ro" xəbər portalı, "Pescurt.ro" xəbər portalı, "Gandul" nəşri və digər nüfuzlu media orqanları, o cümlədən "Pro TV" televiziya kanalı, "Prima TV" televiziya kanalı və başqaları Çin Xalq Respublikasının Sədri Si Cinpin və Azərbaycan Prezidenti İlham Əliyev arasında Pekində keçirilmiş görüşə həsr olunmuş "Ticarət müharibələri və tariflər qlobal iqtisadi nizamı pozur - Azərbaycanla strateji tərəfdaşlıq güclənir" sərlövhəli məqalələr yazılıb.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin 22-24 aprel tarixlərində Pekinə etdiyi rəsmi səfər çərçivəsində iki ölkə arasında Strateji Tərəfdaşlığın Genişləndirilməsi haqqında Bəyannamə imzalanıb. Tərəflər hüquq, "yaşıl inkişaf", rəqəmsal iqtisadiyyat, intellektual mülkiyyət və aerokosmik sahələrdə 20-yə yaxın əməkdaşlıq sənədinə imza atıblar. Bundan əlavə, Azərbaycan və Çin arasında vizasız rejim tətbiq olunacağı açıqlanıb.

Bolqarıstanın "Fakti.bg" xəbər portalı, BTA xəbər agentliyi, BNT televiziya kanalı, "News.bg" xəbər portalı, Yunanıstanın "Protothema", "Efsyn", "News24/7" xəbər portalı və digər nüfuzlu media orqanları "Si Cinpin: Gömrük rüsumları və ticarət müharibələri qlobal iqtisadi nizama zərər vurur - Çin və Azərbaycan arasında əməkdaşlıq daha da güclənir" sərlövhəli məqalələr dərc ediblər.

***N. BAYRAMLI***

# Səmimi dialoq, etimad quruculuğu




"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın ən mühüm prioritetlərindən biri də sənaye sahəsində əməkdaşlığın dərinləşdirilməsi, sənayenin rəqəmsal transformasiyasının fəal şəkildə irəlilədilməsi ilə bağlıdır. Bu istiqamət üzrə əsas layihələr neft-qaz, bərpaolunan enerji, kimya, metallurgiya, mədənçıxarma, tekstil, avtomobil, tikinti materiallarının, əczaçılıq və qida məhsullarının istehsalında qarşılıqlı fəaliyyəti  nəzərdə tutur. Əməkdaşlıq, həmçinin sənayedə iqlim dəyişikliyinə təsirlərin azaldılması, tullantıların idarəolunması və ya emalı, sənaye sahəsinin rəqəmsallaşdırma və dördüncü sənaye inqilabı texnologiyalarının tətbiqinin gücləndirilməsini əhatə edəcək.

**Sənaye parklarına, maşınqayırma sahələrinə investisiyalar**

Azərbaycan və Çin sənaye əməkdaşlığına uyğun olaraq yaxın günlərdə sənaye texnologiyaları parklarına yeni rezidentlərin cəlb olunmasını təmin etmək niyyətindədir. İqtisadi Zonaların İnkişafı Agentliyi ilə Çinin "Vencou Vanhong" şirkəti arasında razılaşmaya əsasən, Sumqayıt Kimya Sənaye Parkının ərazisində karton istehsalı bloku qurulacaq. Həmçinin Azərbaycanın "İmprotex" və Çinin "Changzhou Dongfeng Agricultural Machinery" şirkəti traktor istehsalı layihəsini icra edəcək. "Azəralüminium" MMC ilə "China Machinery Engineering Corporation"nun birgə investisiya layihələri isə maşınqayırma sənayesinin bir çox bölmələrini nəzərdə tutur.

Tərəflər sənayenin rəqəmsallaşdırılması və qarşılıqlı olaraq mal və əmtəələrin tədakünü tezləşdirmək üçün Beynəlxalq Multimodal Daşımalar platformasına keçidi də hədəfləyib. Bu məqsədlə təhlükəsiz, sabit, birbaşa və Çin-Avropa-Çin TransXəzər ekspress-marşrutlarının yaradılması, gömrük rəsmiləşdirilməsinin rahatlığı səviyyəsinin və yük daşımalarının səmərəliliyinin ardıcıl şəkildə artırılması sahəsində əməkdaşlıq gücləndiriləcək. Nəticədə bu platforma azad və manesiz ticari mübadilələri, e-ticarəti, nəhəng bir coğrafiyada sərbəst gömrük-ticarət zonasının quruculuğu prosesini sürətləndirəcək, Azərbaycanın ətraf və digər bölgə ölkələri ilə asan ticarət kommunikasiyalarına qapı açacaq.

**Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünə dəstək**

Çin Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) tezliklə üzv olmasına da dəstək vermək əzmindədir və bu amil də ölkəmizin qlobal bazarlarda təmsilçilik paylarını artıracaq. Bəyanatda əks olunduğu kimi tərəflər dünya iqtisadi düzənində baş verən dəyişiklikləri daha yaxşı əks etdirmək üçün beynəlxalq maliyyə arxitekturasında islahatın təşviqini dəstəkləyirlər. Tərəflər ticarət və investisiyaların liberallaşdırılmasını və sadələşdirilməsini dəstəkləyir, unilateralizm və proteksionizm, despotizm və dünya ticarəti qaydalarının pozulmasının əleyhinə çıxırlar, birgə rifah naminə çoxtərəfli ticarət sistemini birgə səylərlə müdafiə edir.

Bəyanatın ən mühüm bəndlərindən biri də Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində əməkdaşlıq imkanlardan istifadənin gücləndirilməsidir. Azərbaycan bu mötəbər təsisatla sıx bağlantılar qurub və ŞƏT siyasi-iqtisadi həmrəylik bloku kimi Azərbaycanın ŞƏT alyansında qlobal mühitlə inteqrasiyasını dərinləşdirir. Xüsusilə də bu platformada Çinlə fəal əməkdaşlıq sxemi qurmaqla siyasi, iqtisadi, nəqliyyat-tranzit təmaslarının əlaqələndirilməsi, regional və beynəlxalq çərçivədə təmasların artırılması, mübadilələrin intensivləşdirilməsi istiqamətində iradəli addımlar atır.

Birgə Bəyanat isə Şanxay Əməkdaşlıq Təşkilatında sədr olan Çinin qlobal təsir imkanlarından faydalanmağa, bu ölkənin lokomotivi olduğu regional layihələrdə Azərbaycanın da layiqli təmsilçiliyini legitimləşdirə  bilər. Azərbaycan "ŞƏT-in Dayanıqlı İnkişaf İli" tədbirlərində fəal iştirak etməyə və təşkilatın üzv ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirmək niyətindədir. Çin  bu əməkdaşlıq proqramlarında Azərbaycanı dəstəkləyərək ŞƏT-də hüquqi statusunun artırılmasına kömək edəcək.

**"Yaşıl enerji" də Çin quruculuğu**

Bəyanatda yer alan hədəf məqsədlərindən biri isə bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirmək, təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını təmin etməkdir. Hər iki ölkənin tanınmış enerji şirkətləri arasında əldə edilmiş anlaşmalara əsasən, tərəflər "yaşıl enerji" mənbələrinin istehsalı, emalı və ötürülməsi, bu sahədə güc infrastrukturlarının qurulması, dayanıqlı potensialın şaxələndirilməsi istiqamətində layihələr icra edəcək. İnvestisiya Müqaviləsinə əsasən, Çin şirkətləri Bakı ətrafında 100 MVt gücündə Qobustan Günəş Elektrik Stansiyası layihəsində yer alacaq. "China Energy Overseas Investment Co. Ltd." şirkəti Xəzər dənizində külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsini təmin edəcək. Layihə çərçivəsində 2 QVt gücündə dənizdə külək elektrik stansiyasının maliyyələşdirilməsi, tikintisi, və istismara verilməsi nəzərdə tutulur."China Energy International Group Co.,Ltd." isə külək enerjisi layihələrinin icrası, enerji avadanlıqlarının istehsalının təşkilində yer alacaq.

Çinin digər sənaye nəhənglərindən biri olan "PowerChina Resources Limited" şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında imzalanmış Anlaşma sənədinə əsasən, ölkəmizdə160 MVt gücündə Günəş Elektrik Stansiyası layihəsi icra olunacaq. Layihə, həmçinin gələcəkdə batareya enerji saxlanc sisteminin inteqrasiyası imkanlarını da nəzərdən keçirir. 2028-ci ildə istismara verilməsi planlaşdırılan stansiyada illik təxminən 332 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır.

Çin şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji layihələrinə də marağı böyükdür. Həmin bölgədə "yaşıl güclərin" potensialının yüksək olması nəzərə alınaraq Çin investorlarının yaşıl layihələrdə təmsil olunması gözlənilir. Həmçinin, Çin şirkətləri işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının inkişaf etdirilməsinə, inzibati və yaşayış binalarının avadanlıqlarla təchizatında da iştirak etmək imkanlarını artırmaq niyyətindədir.

**Viza rejimi turizmə və sahibkarlığa töhfə verəcək**

İki ölkə arasında vizasız səfərlərin təmin edilməsinə dair razılaşma da mühüm əhəmiyyət kəsb edir. Qarşılıqlı viza rejiminin ləğv edilməsinə dair sazişə əsasən, Azərbaycan və Çin vətəndaşları vizasız səfərlər edəcəklər. Vizasız rejimə keçid ölkələrin strateji və iqtisadi əlaqələrinin qarşılıqlı olaraq güclənməsinə imkan verəcək və turizm axınlarını stimullaşdıracaq. Qeyd edək ki, 2024-cü ildə Çindən Azərbaycana gələn turistlərin sayı təxminən 2 dəfə artaraq 45 mini ötüb. Cari ilin ilk rübündə isə ölkəmizə səfər edən çinlilərin sayında 1,8 dəfə artım qeydə alınmaqla turist sayı 10 mindən çox olub. Yeni anlaşmanın qüvvəyə minməsi sayəsində Azərbaycandan Çinə və əks istiqamətdə turistlərin sayında əhəmiyyətli artımların baş verəcəyi  istisna edilmir. Onu da nəzərə alsaq ki, Azərbaycan Hava Yollarının Bakı-Pekin birbaşa uçuşlar həyata keçirməsi də reallaşmaqdadır və bu amil də vizasız rejim fonunda qarşılıqlı səfərlərin intensivliyinə müsbət təsir göstərəcək.

Viza anlaşması turizm sektorunda dinamikanı artırmaqla yanaşı, Çindən mal tədarük edən ticari subyektləri, o cümlədən kiçik və orta sahibkarların da mal mübadilələrini asanlaşdıracaq, onların vaxt və gedişlər üçün sənədlərə sərf etdiyi xərcləri aşağı salacaq. Nəticədə iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlıq üçün yeni imkan qapıları açılmış olacaq.

***E.CƏFƏRLİ***

# Bakı dünyanı birləşdirir

## Aprelin 28-29-da Bakıda Qlobal Cənub QHT Platformasının təsis konfransı keçiriləcək

**Asiya, Afrika, Latın Amerikası, Okeaniya bölgələrini özündə birləşdirən böyük coğrafiyanın - dünya ölkələrinin üçdə iki hissəsini əhatə edən Qlobal Cənubun vətəndaş cəmiyyətinin həyatında əlamətdar hadisə baş verəcək. Söhbət Qlobal Cənub QHT Platformasının təsis olunmasından gedir.**

**Təsis konfransı aprelin 28-29-da Bakıda keçiriləcək. Qlobal Cənub coğrafiyasına aid ölkələrin vətəndaş cəmiyyətlərini birləşdirəcək platformanın yaradılması ideyası Azərbaycandan gəlib. Bununla da ölkəmiz daha bir qlobal həmrəylik təşəbbüsünə imza atıb.**

### Azərbaycanın qlobal liderliyi

Sürətlə dəyişən dünyada qarşıya tez-tez yeni çağırışlar çıxır. Bir sıra hallarda ayrı-ayrı ölkələrin bu çağırışları qarşılamağa imkanları çatmır və onlar çətinliklərlə üzləşirlər. Belə vəziyyətlərdə qlobal həmrəylik bir zərurət qismində çıxış edir. Milli səviyyədə dünyaya nümunəvi inkişaf modeli təqdim edən Azərbaycan da daim o mövqedən çıxış edir ki, qlobal təhdidlər qarşısında beynəlxalq həmrəylik daha da gücləndirilməlidir. Əks halda bəşəriyyətin gələcəyini xilas etmək mümkün olmaz. Təkcə son illərdə Prezident İlham Əliyev mahiyyət etibarı ilə sivilizasiyaların birgəyaşayışını, multikulturalizmi təşviq edən, qlobal həmrəyliyin gücləndirilməsini hədəfləyən çox saylı təşəbbüslər irəli sürüb və bu təşəbbüslər beynəlxalq birlik tərəfindən təqdirlə qarşılanıb. Azərbaycanın dövlət başçısının qətiyyətli siyasi iradəsi ilə başlayan "Bakı prosesi", ölkəmizin davamlı olaraq ev sahibliyi etdiyi mədəniyyətlərarası dialoq forumları dünyanın müxtəlif qütblərini birləşdirməyə, inam mühitini möhkəmlətməyə xidmət edir və bu çərçivədə yaxşı təcrübə qazanılıb.

Bir neçə il bundan əvvəl yeni növ koronavirus pandemiyası dönəmində beynəlxalq birlik Azərbaycanın yaranan təhdidə necə böyük həssaslıqla yanaşdığının və həmin çətin günlərdə qlobal liderlik keyfiyyətləri nümayiş etdirdiyinin bir daha şahidi oldu. Milli səviyyədə pandemiyaya qarşı nümunəvi qaydada mübarizə aparan Azərbaycan həmçinin Ümumdünya Səhiyyə Təşkilatına (ÜST), Qoşulmama Hərəkatında (QH) təmsil olunan dövlətlərə böyük həcmlərdə maliyyə yardımları göstərdi, "peyvənd millətçiliyi"nə qarşı çıxdı. Ölkəmizin təşəbbüsü ilə qlobal pandemiya ilə mübarizə mövzusunda Türk Dövlətlərinin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Təmas Qrupunun videokonfrans formatında Zirvə görüşləri keçirildi. Həmin dövrdə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi QH-yə üzv ölkələr adından pandemiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə dövlət və hökumət başçıları səviyyəsində videokonfrans formatında BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi təklifini irəli sürməsi çox doğru olaraq qlobal təhdidə qlobal cavab kimi dəyərləndirilir. Sessiya baş tutdu və 150 ölkə tədbirdə qəbul olunan qətnamənin lehinə səs verdi.

Son vaxtlarda aktuallığı artan iqlim çağırışlarına həssas yanaşması Azərbaycanın qlobal liderliyinə daha bir nümunədir. Ötən ilin noyabr ayında respublikamız BMT-nin iqlim konfransına - COP29-a uğurla ev sahibliyi etdi. COP29-un keçirilməsi üçün Bakının məkan seçilməsi beynəlxalq birliyin ölkəmizə artan inamını təsdiqləyir. Azərbaycan qısa müddətdə yüksək səviyyəli hazırlıqlar görməklə və konfransda bir sıra mühüm nəticələrə, xüsusilə də iqlim maliyyələşməsində, kiçik ada dövlətlərinə dəstək göstərilməsində irəliləyişlərə nail olmaqla bu etimadı yüksək səviyyədə doğrultdu.

Azərbaycanın Qlobal Cənub QHT Platformasının yaradılması təşəbbüsündən çıxış etməsi bir yenilikdir. Bununla ölkəmiz həm də cəmiyyətlər arasında körpülər yaradılmasına nail olmaq istəyir. Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli təsis konfransı ilə əlaqədar qurumun ofisində keçirilən brifinqdə bəə bir təşəbbüsün ölkəmizdən gəlməsinin xüsusi önəminə diqqət çəkərək vurğulayıb: "Tarixdə ilk dəfə Qlobal Cənub QHT Platformasının təsis olunması nəzərdə tutulur. Bizim üçün şərəf və qürurdur ki, bu platformanın təşəbbüskarı Azərbaycanın vətəndaş cəmiyyətidir".



### Dünyanın 140 ölkəsində dəstək qazanan təşəbbüs

R.İskəndərli xatırladıb ki, Azərbaycan Milli QHT Forumu 2024-cü il noyabrın 15-də COP29 çərçivəsində keçirilən Qoşulmama Hərəkatı regionu QHT-lərin "Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafı: QHT-lərin rolu" adlı beynəlxalq konfransda Qlobal Cənub QHT Platformasının yaradılmasının vaxtının çatdığını elan edib. Bu təşəbbüs beynəlxalq dəstək qazanaraq 140-a yaxın ölkənin QHT-ləri tərəfindən alqışlanıb, 1000-dən çox xarici QHT bu təşəbbüsü müdafiə edən birgə bəyanat yayıb.

Üzvlərinin 84 faizi inkişaf etməkdə olan ölkələrin vətəndaş cəmiyyətlərini təmsil edən COP29 QHT Koalisiyası da bu təşəbbüsün reallaşdırılması üçün çağırış edib. Koalisiya ötən ilin sonunda Qlobal Cənub QHT Platformasının təsisatlandırılması üçün məsələ qaldırıb, Azərbaycan Milli QHT Forumundan prosesin aparılması xahiş olunub. "Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinə minnətdarıq, bu qlobal təşəbbüsü reallığa çevirməkdə bizə əsl dəstək verdi, kömək üçün bütün müraciətlərimizə müsbət yanaşdı. Dünyanın 110-dan çox ölkəsindən aparıcı QHT rəhbərləri dəvətimizi qəbul edib, onlar Bakıda olacaqlar. Bu, həm Qlobal Cənub, həm də Azərbaycan üçün əsl QHT səfərbərliyidir. Biz həmrəyliyimizi nümayiş etdirəcək, gücümüzü birləşdirəcəyik", - deyə R.İsgəndərli vurğulayıb.

### Ölkənin vətəndaş cəmiyyətinin həyatında yeni başlanğıc

Brifinqdə Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva Qlobal Cənub QHT Platformasının COP29-un ölkəmizin həyatına gətirdiyi daha bir yenilik olduğunu bildirərək vurğulayıb: "Bu təşəbbüs məhz COP29 zamanı irəli sürülüb. Biz böyük iftixar içərisindəyik ki, Azərbaycan QHT-lərinin təşəbbüsü ilk dəfə dünya miqyasında belə bir qlobal dəstək qazanıb. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə yeni və ədalətli dünya nizamı üçün gərgin fəaliyyəti, irəli sürdüyü mühüm təşəbbüslər, COP29 zamanı "Bakı dönüşü"nün əldə olunması Qlobal Cənubda Azərbaycan dövlətinə böyük rəğbət yaradıb". Bu tədbirin Azərbaycanın vətəndaş cəmiyyətinin həyatında yeni başlanğıc olduğunu söyləyən A.Əliyeva qeyd edib: "Azərbaycan QHT-ləri Qlobal Cənub regionu ölkələrinin QHT-ləri ilə yeni əlaqələr quracaq, əməkdaşlığı daha da dərinləşdirəcək".

Qeyd edək ki, platformanın təsis konfransı aprelin 28-29-da Bakı Konqres Mərkəzində keçiriləcək. İki gün davam edəcək "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı Forumda dünyanın aparıcı QHT-lərindən nümayəndələr çıxış edəcək, qlobal diskussiyalar təşkil olunacaq, 70 il əvvəl İndoneziyada qəbul edilmiş tarixi "Bandunq prinsipləri"nin əhəmiyyəti vurğulanacaq. Bu prinsiplər dövlətlərin daxili işlərinə qarışmanı rədd edir, dinc, ədalətli dünya nizamının yaradılmasını, ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət bəslənilməsini, xalqların bərabərliyinin təmin olunmasını təşviq edir, qarşılıqlı maraq və əməkdaşlığın, iqtisadi rifahın gücləndirilməsi üçün səfərbərliyə çağırır.

***Mübariz ABDULLAYEV***

# Dünya kosmik ailəsinin etibarlı üzvü

## "Azərkosmos" regionda texnologiya habına çevrilməyi hədəfləyir

**Azərbaycanın Kosmik Agentliyi ("Azərkosmos") qlobal kosmik sənaye cəmiyyətinə inteqrasiyanı dərinləşdirməkdədir. Agentliyin rəhbər vəzifəsini icra edən Dunay Bədirxanov bildirib ki, ölkəmizin kosmik sənayesində dayanıqlı inkişaf templəri regional alyansda mövqeyimizin möhkəmlənməsinə səbəb olur. "Azərkosmos" Mərkəzi Avrasiya da daxil olmaqla, regionda sürətlə inkişaf edən qlobal kosmos iqtisadiyyatına innovasiyalar təqdim etməklə və infrastrukturunu inkişaf etdirməklə öz strateji mövqeyini artırır. Qlobal kosmos sektoruna dərin transformasiya isə kosmos sahəsində beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsinə imkan verir. Nəticədə Azərbaycanın kosmik sənayesinin inkişafı ölkəmizin regionda və qlobal miqyasda liderliyini daha da möhkəmləndirir.**

### "Azersky 2"nin hazırlığı tamamlanır

"Azərkosmos" hazırda dayanıqlı inkişaf, iqlim müşahidəsi, texnoloji tərəqqi və beynəlxalq layihələrdə daha fəal rol oynayır və yeni peyk xidmətlərinin tətbiqinə hazırlaşır. Qurum yeni sənaye məhsulu olan "Azersky 2" peykinin hazırlığını tamamlamaqla ilk böyük peyk layihəsi kimi qlobal kosmik sənaye cəmiyyətinə daxil olmaq niyyətindədir. Qeyd edək ki, Azərbaycan növbəti optik müşahidə peykinin 2026-cı ildə orbitə buraxılması nəzərdə tutulur. "Israel Aerospace Industries" şirkəti ilə birgə hazırlanan yeni peyk ölkəmizdə yer səthinin müşahidəsi sektorunda davamlılığı təmin edəcək, hazırda azad edilmiş ərazilərdə aparılan tədiqaqatların sürətlənməsinə töhfə verəcək.

"Azərkosmos" son illərdə dünya kosmik ailəsinin etibarlı üzvü kimi dünyanın ən qabaqcıl şirkətləri ilə əməkdaşlığı artıraraq yeni nəsil texnologiyaların tətbiqinə nail olmaqdadır. Bir müddət əvvəl qardaş Türkiyənin "İmpro" şirkəti ilə imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, Kosmik Agentlik "Göktürk-1" peyki vasitəsilə təsvir və həllərdən istifadəni də əldə edəcək. Ötən ilin sonlarında Azərbaycanın Kosmik Agentliyi ilə İtaliyanın yerüstü idarəetmə şirkəti olan "Leaf Space"lə imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, "Azərkosmos"un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzinin Bakı teleportunda 3,7 metrlik "S/X" diapazonlu anten quraşdırılıb. Yeni qurğu sistemi müxtəlif peyklərdən toplanan kritik məlumatların emalı və ötürülməsini, peyk şəbəkələri arasında nəzarəti, eləcə də kosmosdakı cihazların monitorinqini həyata keçirməyə imkan verir.




### Çinin kosmik nəhəngi ilə bir platformada

"Azərkosmos" Çinin qlobal terminal istehsalçısı olan "StarWin" şirkəti ilə əməkdaşlığı artırmaq niyyətindədir. Ötən il sözügedən şirkətlə müqavilə imzalanıb və regionda rabitə xidmətlərinin əhatəsini genişləndirmək üçün əlavə peyk resursu bazası yaradılıb. Çin şirkəti ilə əməkdaşlıq çərçivəsində, müştərilərə ənənəvi rabitə infrastrukturu olmayan uzaq bölgələrdə xidmət göstəriləcək ki, həmin xidmətləri "Azconnexus"-StarWin" peyk internet platforması birlikdə təchiz edəcək. Əməkdaşlıq çərçivəsində, həmçinin "Azərkosmos" biznes xətlərini genişləndirməyə çalışacaq ki, nəticədə bu layihə təkcə peyk resurslarının satışı ilə deyil, qlobal partnyorlara məxsus peyk xidmətlərinin kommersiyalaşdırılması sayəsində də gəlir əldə etməyə imkan verəcək. Azərbaycanın Cənubi Qafqaz və Xəzər regionunda kosmik texnologiya habına çevrilməsini təmin edəcək. Bu layihələr, həm də Azərbaycan iqtisadiyyatının güclənməsinə, post-neft dövründə milli gəlirlərin strukturunda kosmik sənaye dividentlərinin artmasına səbəb olacaq.

### Milli kadrların fəzaya çıxış hazırlığı

Kosmik Agentlik öz kadr institunu da gücləndirib və milli potensiala güvənilən baza formalaşır. İndiyə qədər kosmosa göndərilmiş peyklərdə yerli mütəxəssislərimiz çox az olduğu üçün bu prosesə xaricdən mühəndislər cəlb olunurdusa, hazırda peyk idarəetmə üzrə yerli mütəxəssislərin hazırlanması "Azərkosmos"un öz idarətmə imkanlarını təmin etməkdədir. Həmin potensiala arxalanaraq "Azersky 2" peyk proqramının idarə olunması milli kadrlar tərəfindən həyata keçiriləcək. Bu innovativ idarətmə modelinin növbəti mərhələsi isə azərbaycanlıların kosmonavtlar ailəsində yer almasıdır. Agentlik rəsmisi qeyd edib ki, gələcəkdə azərbaycanlıların kosmosa çıxması ilə bağlı tədbirlər görüləcək, onların təlimə və beynəlxalq kosmik proqramlara cəlb olunması ilə bağlı addımlar atılacaq.

***E.CƏFƏRLİ***

# Üçüncü qüvvələr regiondan çıxmalıdır

## EUMA-nın Cənubi Qafqazda fəaliyyətinə son qoyulmalıdır




Azərbaycan Avropa İttifaqı ilə münasibətlərində daim beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı hörmət və bərabərhüquqluluq əsasında qurulan əməkdaşlığa üstünlük verib. Bu mövqe imzalanan sənədlərdə, diplomatik danışıqlarda və parlamentlərarası münasibətlərdə ardıcıl şəkildə əksini tapıb. Lakin ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsindən sonra Avropa İttifaqı institutlarının bəzi Qərb dairələrinin təsiri altına düşərək Azərbaycanın əleyhinə yönəlmiş hibrid təhdid alətinə çevrilməsi narahatlıq doğurur.

**Milli Məclisin komissiyası ciddi faktlar təqdim edib**

Bu məsələ Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının aprelin 24-də "Cənubi Qafqazda sabitliyə "sülh missiyası" adlı hibrid hücum" mövzusunda keçirdiyi ictimai müzakirələrdə də diqqət mərkəzində olub. Komissiyanın qənaətinə görə, Azərbaycana qarşı həyata keçirilən hibrid hücumlarda istifadə olunan əsas alətlərdən biri Avropa Parlamenti və Fransa kimi Avropa İttifaqına üzv ölkələrin parlamentlərində aparılan anti-Azərbaycan məzmunlu müzakirələr, dinləmələr, hazırlanan və ya qəbul edilən qətnamələrdirsə, digər mühüm vasitə isə Avropa İttifaqının Ermənistandakı "müşahidə missiyası" (EUMA) vasitəsilə yönəldilən həmlələrdir. Komissiyasının sədri, deputat Ramid Namazov deyib ki, Avropa İttifaqı (Aİ) ilə Ermənistan arasında EUMA-nın statusu ilə bağlı 2023-cü il dekabrın 8-də imzalanan razılaşma sənədinin 5-ci və 6-cı maddələrində missiyaya, onun əməkdaşlarına verilən imtiyazlardan və immunitetlərdən söz açılır. Məlum olur ki, missiyaya aid obyektlərdən tutmuş sənədlərə kimi hər bir şey toxunulmaz hesab edilir. Ermənistanın hüquq-mühafizə və ya xüsusi xidmət orqanlarının onlara qarşı hər hansı bir hərəkəti qadağan olunur. Sənədin 4-cü maddəsinin 6-cı bəndində göstərilir ki, EUMA personalı etibarlı milli, beynəlxalq sürücülük və ya pilot vəsiqəsi olduğu təqdirdə, bu ölkənin daxilində nəqliyyat vasitəsi sürə və hava nəqliyyatı vasitəsini idarə edə bilər.

**EUMA erməni pilotlara təlim keçir?**

7-ci bəndə görə isə EUMA və personalı istifadələrində olan nəqliyyat vasitələri, avadanlıqlar və ləvazimatlar ilə Ermənistan ərazisində, o cümlədən onun hava məkanında sərbəst və məhdudiyyətsiz hərəkət edə bilirlər. 8-ci bəndə gəlincə, EUMA personalına öz fəaliyyətləri ilə bağlı heç bir rüsum, vergi və ya digər ödənişlər etmədən yollardan, körpülərdən və hava limanlarından istifadə etmək hüququ verilir. Razılaşmadan belə anlaşılır ki, EUMA personalı Ermənistan ərazisində təyyarə və ya helikopteri (bunlar hərbi məqsədlər üçün də ola bilər) istədikləri vaxt maneəsiz idarə etmək səlahiyyətinə malikdir. Prinsip etibarilə bu, EUMA-ya erməni pilotlara həm təlim keçməyə, həm də özlərinin hərbi əməliyyatlarda iştirakına imkan verir.

R.Namazov bildirib ki, razılaşmaya əsasən, missiyanın əməkdaşları heç bir halda həbs oluna və ya saxlanıla bilməz, Ermənistanın cinayət yurisdiksiyasından bütün hallarda toxunulmazlığa malikdirlər. Eyni zamanda, onlar fəaliyyətləri ilə bağlı dedikləri və ya yazdıqları fikirlərə görə mülki və inzibati məsuliyyətdən azad olunurlar, şahid qismində ifadə vermək məcburiyyətində deyillər. Ermənistan ərazisində onlar barəsində cinayət hüquqi və intizam tədbirlərini yalnız vətəndaşı olduqları ölkənin müvafiq qurumları həyata keçirə bilər. Sənədin 11-ci maddəsində göstərilir ki, Ermənistan rəsmiləri EUMA və personalı ilə tam əməkdaşlıq etməli, onları dəstəkləməlidirlər. Onlara istənildiyi və ya zəruri hallarda lazım olan obyektlərə, ərazilərə və rəsmi nəqliyyat vasitələrinə, habelə sənədlərə, materiallara və məlumatlara effektiv girişi təmin etməlidirlər. On üçüncü maddəyə görə isə vəfat etmiş EUMA əməkdaşının ölüm səbəbinin müəyyənləşdirilməsi məqsədilə onun meyitinin göndərən ölkənin razılığı, EUMA və ya həmin ölkənin nümayəndəsinin iştirakı olmadan yarılması qadağandır. "Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının qənaətinə görə, Missiya və əməkdaşlarına bu cür imtiyaz və immunitetin verilməsi onlara Ermənistan daxilində kəşfiyyat və casus fəaliyyəti ilə rahat məşğul olmaları üçün əlavə şərait yaradır. Bu toxunulmazlıq hüququ EUMA əməkdaşına məsuliyyətə cəlb olunmadan ölkəni tərk etmək imkanı verir", - deyə Ramid Namazov əlavə edib.

**Aİ missiyasının hərbi-kəşfiyyat qrupu olduğu ifşa edildi**

Beləliklə, parlament komissiyasının araşdırmaları göstərir ki, Avropa İttifaqının Ermənistandakı missiyasi - EUMA, "sülh və etimad quruculuğu" adı altında faktiki olaraq bölgədə kəşfiyyat xarakterli fəaliyyətlər həyata keçirir. Missiyanın sərhədin Ermənistan tərəfində müşahidəçi funksiyasını aşaraq, hərbi infrastruktur və istehkamların qurulmasında iştirak etdiyi, həmçinin "müşahidəçilərin" Azərbaycan ərazilərinə yönəlik casusluq fəaliyyəti apardığına dair kifayət qədər əsaslı sübutlar mövcuddur. Fransa tərəfindən Ermənistana hücum silahlarının verilməsi və ölkənin gələcəkdə beynəlxalq hərbi əməliyyatlara, o cümlədən Avropa İttifaqı tərəfindən aparılacaq missiyalara hazırlanması, Cənubi Qafqazda və ümumilikdə regionda yeni münaqişələrin başlama ehtimalını artırır. Komissiya belə qənaətə gəlir ki, bölgədə sülhün bərqərar olunması üçün Ermənistan xarici təsirləri və üçüncü qüvvələrin müdaxiləsini dayandırmalı, konstruktiv və səmimi yanaşma sərgiləməlidir. Bütün bu faktlar Azəbaycanın Aİ missiyası ilə bağlı haqlı narahatlığını bir daha təsdiqləyir. Ona görə də, bu missiyanın fəaliyyətinə son qoyulmalıdır.

***Nardar BAYRAMLI***

# Hava, su qədər vacib...

## Söz azadlığı demokratiyanın mühüm göstəricisidir!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

Hüquqi dövlətin formalaşmasında kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Günümüzdə mətbuat və söz azadlığı cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi hesab edilir. Belə ki, KİV-lər cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir. Təsadüfi deyil ki, Heydər Əliyev "Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. O, həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək



ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir",- deyirdi.

Bu gün ölkəmizdə KİV-lərin müstəqil fəaliyyəti, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsi üçün hərtərəfli şərait var. KİV-lər cəmiyyətlə dövlət arasında bir növ əlaqələndirici həlqə rolunu oynayır. Bu mənada yazılı mətbuat, elektron KİV-lər sadəcə, informasiya vermək, maarifləndirmək və əyləndirmək kimi funksiyalarla məhdudlaşmır. Onlar, eyni zamanda, ictimai nəzarətçi, tənqidçi, müdafiəçi kimi funksiyaları özündə daşıyır.

**Ölkəmizdə modern mexanizmlər tətbiq edilir**

Milli Məclisin İnsan Hüquqları Komitəsinin üzvü Bəhruz Məhərrəmov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, demokratik inkişaf yolunu tutan, insan hüquq və azadlıqlarına önəm verən ölkəmizdə söz və ifadə azadlığı təmin edilir. Onun sözlərinə görə, söz azadlığının mühüm atributlarından biri azad, müstəqil media subyektlərinin mövcudluğu, jurnalist fəaliyyətinin azadlığı, alternativ informasiya mənbələrinə çıxışın təmin edilməsidir: "Azərbaycan demokratik dövlət olaraq öz ərazisində söz və ifadə azadlığının inkişafını təmin edir. Ona görə də çağdaş dünyada mövcud olan modern mexanizmləri tətbiq edir. Bu kontekstdə mühüm addımlardan biri də media fəaliyyəti üzərində dövlət tənzimləyici mexanizmlərin, inzibati amirlik sisteminin ləğv edilməsi, mediaya özünütənzimləmə statusunun verilməsidir. 1998-ci ildə ölkəmizdə senzuranın tətbiqi aradan qaldırılıb. Azərbaycan postsovet məkanında medianın özünütənzimləmə statusunu tətbiq etmiş ilk ölkələrdəndir, media fəaliyyəti azaddır, sərbəstdir. Bu azadlıq ölkənin Konstitusiyası ilə təsbit edilib".

**Alternativ informasiya mənbələrinə sərbəst çıxış**

Deputat qeyd edib ki, beynəlxalq standartlara görə, hər hansı bir ölkədə media azadlığının durumu qiymətləndirilərkən, ilk öncə media mühiti dəyərləndirilir: "Diqqət yetirsək görərik ki, media mühitini şərtləndirən 4 komponentin hər biri Azərbaycanda təmin edilib: media qanunvericiliyi demokratikdir, jurnalistlərin təhlükəsiz fəaliyyətinə təminat var, etik çərçivə medianın özünütənzimləmə qurumları tərəfindən tətbiq edilir və sair. Azərbaycan az saylı dövlətlərdəndir ki, burada "KİV-in inkişafına dövlət dəstəyi konsepsiyası" qəbul edilib və icra olunur.

Azərbaycanda söz və ifadə azadlığının yüksək səviyyədə təmin edildiyini göstərən amillərdən biri alternativ informasiya mənbələrinə sərbəst çıxışın təmin edilməsidir. Bu kontekstdə xüsusi olaraq sosial şəbəkə platformalarının fəaiyyətini qeyd etmək olar. Azərbaycanda sosial şəbəkələrin fəaliyyətini məhdudlaşdıran hər hansı bir qanunvericilik aktı yoxdur. İnsanların sosial media alətlərindən istifadəsi azaddır. Təsadüfi deyil ki, bu gün ölkə əhalisinin 50 faizdən çoxu sosial şəbəkə istifadəçisi, 80 faizi internet istifadəçisidir".

**Qapalı cəmiyyətlər inkişafdan geri qalır!**

B.Məhərrəmovun sözlərinə görə, vətəndaşın dövlətin həyatındakı rolunu artırmaq istəyiriksə, mütləq söz və mətbuat azadlığını təmin etməli, fikir müxtəlifliyinə nail olmalıyıq: "Bundan başqa, demokratik təsisatların inkişaf etməsinin qeydinə qalmalıyıq. Çünki şəffaf cəmiyyət quruculuğu, açıq və ədalətli mübarizə mühitinin inkişafını təmin edir, yeni hədəflərin, ideyaların ortaya çıxmasına səbəb olur. Qapalı cəmiyyətlər isə hər zaman inkişafdan geri qalıb. Fikir azadlığı və demokratiya olmayan, hamının eyni cür düşünməyə məhkum edildiyi ölkələr müxtəlif kriteriyalar üzrə rəqabətdə azad və demokratik dövlətlərə uduzurlar".

**Qarşılıqlı əməkdaşlıq vacibdir**

Deputat qeyd edib ki, ölkəmizdə söz azadlığının təmin edilməsi həm də vətəndaş cəmiyyətinin, media təsisatlarının şəffaf fəaliyyətindən asılıdır: "Təəssüf ki, bir çox hallarda söz və mətbuat azadlığından sui-isifadə hallarına şahid oluruq. Bu da ümumilikdə prosesə zərbə vurur, söz və mətbuat azadlığının, fikir müxtəlifliyinin vacibliyi ilə bağlı problemləri arxa plana keçirir. Çünki bəzi adamlar sui-istifadə hallarını qabardaraq bütövlükdə demokratik təsisatları, mətbuatı, ictimai institutları gözdən salmağa çalışır. Buna yol vermək olmaz.

Hər iki tərəf- həm rəsmi strukturlar, həm də söz və mətbuat azadlığı sahəsində çalışan insanlar, ictimai institutlar və media qarşılıqlı əməkdaşlıq etməyi bacarmalıdır".

***Sahib***

# Melani Colinin yanlış "ənənəsi"

## Kanadalı nazir ölkəsinin yox, Erməni Milli Komitəsinin maraqlarını təbliğ edir

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsindən narahat olan ölkələrdən biri də Kanadadır. Belə ki, bu ölkə dövlətimizin BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilmir. Kanadanın xarici işlər naziri Melani Colinin vaxtaşırı olaraq Azərbaycana qarşı yalan və böhtan üzərində qurulmuş fikirlər səsləndirməsi də bunun göstəricisidir. Ötən il M.Coli Azərbaycanın Qarabağda keçirdiyi antiterror tədbirlərinin "birinci ildönümü ilə əlaqədar" bəyanat verərək iddia etmişdi ki, "Kanada Dağlıq Qarabağ məsələsinin danışıqlar yolu ilə həllini və gücdən istifadə etməmək prinsipini, eləcə də ərazi bütövlüyünə, xalqların öz müqəddəratını təyinetmə hüququna hörməti dəstəkləyir. Bu, erməni sakinlərinin təhlükəsiz və ləyaqətli qayıtmaq hüququnu, insan hüquqlarının qorunmasına təminatları və ərazidə erməni mədəni-tarixi irsinin qorunmasını nəzərdə tutmalıdır". O, Ermənistana səfərində də oxşar iddialar səsləndirmişdi.

### XİN: "Həmişə faktlara əsaslanın, erməni diasporunun yalan narrativlərinə yox"

Melani Coli "ənənəsinə" sadiq qalaraq yenə də Azərbaycana qarşı analoji yalan və böhtan fikirlər səsləndirib. Bu, onu göstərir ki, sanki kanadalı nazirin regionda baş verənlərdən xəbəri yoxdur. Əgər xəbəri olsaydı, bilməliydi ki, "Dağlıq Qarabağ" məsələsi çoxdan mövcud deyil. Hazırda gündəmin əsas mövzusu isə Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasıdır.

Yeri gəlmişkən, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Kanada XİN başçısına cavab verib. O, Melani Colini qərəzli olduğu və Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş cinayətləri görməzdən gəldiyi üçün sərt tənqid edib. A.Hacızadə, Kanada nazirini öz ölkəsinin milli maraqlarına ziyan vuraraq erməni diasporunun maraqlarını təşviq etməkdə ittiham edib. Qeyd edilib ki, M.Colinin XİN başçısı olaraq ölkəsinin milli maraqlarına üstünlük vermək əvəzinə Erməni Milli Komitəsinin maraqlarının müdafiəsində iştirak etməsi ciddi suallar doğurur.

Azərbaycan XİN-in rəsmi nümayəndəsinin sözlərinə görə, Coli hələ də Ermənistan tərəfindən etnik təmizləməyə, kütləvi qırğınlara və mədəni soyqırıma məruz qalmış bir milyondan çox azərbaycanlının əzablarını tanımayıb. A.Hacızadə həmçinin bir aforizmə də istinad edib: "Necə də dəqiq deyilib: Qərəz kölgə kimidir, ağlı qaranlıqlaşdırır". O, Kanada nazirinə faktlara əsaslanmağın vacibliyini xatırladıb: "Kiçik bir xatırlatma: həmişə faktlara əsaslanın, erməni diasporunun yalan narrativlərinə yox".

Azərbaycanın 2023-cü ildəki lokal antiterror tədbirlərindən danışarkən, XİN nümayəndəsi qeyd edib ki, bu əməliyyat qanuni və mütənasib olub. Onun sözlərinə görə, Azərbaycanın 2023-cü ildəki antiterror tədbirləri ölkəmizin ərazisində olan qanunsuz erməni silahlı birləşmələrinin təxribatlarına qarşı qanuni və mütənasib cavab idi. 24 saatdan az davam edən əməliyyat bu birləşmələrin neytrallaşdırılmasına yönəlmişdi və tamamilə beynəlxalq humanitar hüquq normalarına uyğun idi. "Mülki əhali və infrastruktur hədəfə alınmayıb, erməni sakinlərin regiondan getməsi isə onların könüllü qərarı olub", - deyə, A.Hacızadə xatırladıb.



### Azərbaycanla təhdid dilində danışmaq yanlışdır!

Beləliklə, kanadalı nazirin "erməni sevgisi" açıq şəkildə özünü ifadə edir. Bu "sevgisinin" nəticəsidir ki, xanım Coli öz yalanlarını hər il təkrar etməkdən yorulmur. Bölgədə heç bir humanitar böhran olmayan bir şəraitdə Kanada naziri tərəfindən bunun əksinin iddia edilməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə açıq dəstək verilməməsi, eləcə də Azərbaycanın keçmiş işğal olunmuş ərazilərindən köçkün düşmüş və Ermənistandan zor gücü ilə deportasiya olunmuş qaçqınların vəziyyəti ilə maraqlanmaması Kanada tərəfindən ölkəmizə qarşı göstərilən açıq qərəzin bariz nümunəsidir.

Digər tərəfdən, Azərbaycanla təhdid dilində danışılması olduqca yanlışdır. Bu kimi təxribat xarakterli və qərəzli bəyanatların bölgənin beynəlxalq hüquq prinsipləri əsasında gələcək inkişafı və tərəqqisinə maneçilik cəhdindən başqa bir şey deyil.

***Nardar BAYRAMLI***

# PKK silahı yerə qoyacaqmı?

## Ankara terrora qarşı mübarizəni davam etdirir

Türkiyədə fəaliyyəti qadağan edilmiş və terrorçu təşkilat kimi tanınan PKK aprel ayının sonuna qədər özünü buraxmaq barədə qərar qəbul edəcək. Türkiyə mətbuatının yazdığına görə, Ədalət və İnkişaf Partiyasının (AK Parti) rəsmi nümayəndəsi Ömər Çelik jurnalistlərə bildirib ki, cari ay ərzində uzunmüddətli problemin həllində əhəmiyyətli irəliləyişlər ola bilər. DEM (Xalqların Bərabərlik və Demokratiya Partiyası) partiyasının nümayəndələri isə aprelin 22-də terrorçuluq fəaliyyətinə görə ömürlük həbs cəzası çəkən PKK lideri Abdullah Öcalanla görüşüblər. "Məlumatlara görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan PKK-nın aprel ayının sonuna qədər silahlı qarşıdurmanı dayandırmaq və özünü buraxmaq barədə qərar qəbul edəcəyi barədə məlumatlandırılıb", - deyə Türkiyə KİV-i yazıb.

### 49 min 902 əməliyyatda 842 terrorçu ələ keçirilib...

Qeyd edək ki, "Terrorsuz Türkiyə" prosesi bir neçə gün öncə Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən Mərkəzi İdarə Heyətinin iclasının əsas gündəm maddəsi olub. Prezident Ərdoğan prosesin əhəmiyyətinə diqqət çəkərək, "Ən mühüm hədəfimiz "Terrorsuz Türkiyə"dir. Bu çərçivədə hər şey proqnozlaşdırdığımız kimi yaxşı gedir. DEM heyəti ilə görüşüm də çox məhsuldar keçdi. Görüşlər davam edəcək. Ümid edirik ki, nəticə əldə edəcəyik" deyə vurğulayıb. AK Parti Baş Qərargahında təxminən 2 saat davam edən toplantıda daxili işlər naziri Əli Yerlikaya nazirliyin 1 yanvar - 31 dekabr 2024-cü il tarixləri arasında fəaliyyəti ilə bağlı təqdimatla çıxış edib. "Hürriyet"in əldə etdiyi təqdimatda bu məlumatlar yer alıb: "Yalnız bir məqsədimiz var - Terrordan Azad Türkiyə. Keçirilən 49 min 902 əməliyyatda 842 terrorçu ələ keçirilib, onların 35-i öldürülüb, 672 nəfər isə sağ ələ keçirilib. 135 terrorçu isə təslim olub. Əməliyyatların 54 min 612-ində Pilotsuz Uçuş Aparatlarının (PUA) dəstəyindən istifadə olunub. 5 min 600 şəhər əməliyyatlarında 10 min 993 şəxs saxlanılıb. Onlardan 1991-i həbs olunub, 2 min 653-ü haqda isə məhkəmə qərarı çıxarılıb. Terrorla mübarizə çərçivəsində 91-i PKK, 13-ü isə İŞİD olmaqla, ümumilikdə, 104 aksiyanın qarşısı alınıb. Qarşısı alınan terror aktlarından 79-u bombalı hücumlar olub. FETÖ-yə qarşı 5059, İŞİD-ə qarşı isə 1509 əməliyyat keçirilib - 1170 nəfər FETÖ, 816 nəfər isə İŞİD üzvü olan və ya bağlılığı olan şəxs həbs edilib. Əməliyyatlar zamanı 7-si qırmızı, 4-ü narıncı, 2-si sarı, 28-i isə boz siyahıda olan 41 yüksək səviyyəli terrorçu zərərsizləşdirilib.

Qeyd olunub ki, terrorun maliyyələşdirilməsi ilə bağlı 296 əməliyyat keçirilib. 1684 nəfər saxlanılıb, 254 nəfər həbs edilib - 4,4 milyonu PKK/KCK təşkilatına aid olmaqla 85 milyon 741 min TL ələ keçirilib.



### Terrorçulara çağırış: Silahı yerə qoyun...

Beləliklə, ötən il terrora qarşı mübarizədə aparılan bu yüksək səviyyəli fəaliyyətdən sonra ortaya bir sual çıxır - həqiqətən də PKK silahı yerə qoyacaqmı və sabitliyin bərpası üçün yaradılan bu şəraitdən istifadə ediləcəkmi? Göründüyü kimi Türkiyə dövləti terrorun bitməsi üçün bütün lazımi addımları atır və tədbirləri görür - hətta, Türkiyə Silahlı Qüvvələri döyüş təyyarələrindən terrorçulara "təslim olun" çağırış vərəqələri atıb. Terror təşkilatı liderinin PKK-nın dağılması lehinə açıqlama verdiyi vurğulanan və kürd dilində yayılan bəyanatda təslim olanlara dövlətin bağışlayıcı yanaşması ilə qarşılanacağı bildirilib. Bildirişlərdə "Bu fürsəti qaçırmayın. Dövlət bağışlayandır. Mağaralardan çıxın, insanpərvər həyat sürün" ifadələri işlədilib. Bəyannamədə daha əvvəl təslim olmuş PKK üzvlərinin Türkiyə hərbçilərinin onlara qarşı münasibətini əks etdirən və meydandakı terrorçuları "təslim olmağa" çağıran mesajlar da yer alıb.

### DEM yenidən İmralıya getdi...

Bu arada PKK-nın silahı yerə qoyaraq təslim olması üçün aparılan fəaliyyət də davam etdirilir. Belə ki, DEM Partiyasının üzvləri növbəti dəfə İmralıda olublar və terrorçu dəstə rəhbəri Öcalanla görüşüblər. DEM Partiyasının həmsədri Tuncer Bakırhan İmralı nümayəndə heyətinin PKK lideri Abdullah Öcalanla son görüşü ilə bağlı "ümidliyik" deyib. Bakırhan partiyasının qrup toplantısında və daha sonra jurnalistlərə verdiyi açıqlamada "Terrordan azad Türkiyə" hədəfi ilə bağlı bildirib ki, Türkiyə cəmiyyəti yeni və mühüm inkişafların olmasını gözləyir: "Artıq Öcalanın silahı yerə qoymaq çağırışı var. Ümid edirəm ki, qarşıdakı günlərdə qarşıdurma, zorakılıq, döyüş olmadan, cənab Ömər Çelikin dediyi kimi, gözəl günlər, gözəl addımlar görəcəyik. Qarşıdakı günlər çox önəmli günlərdir".

**SADİQ**

# Cənubi Asiya böyük müharibə astanasında...

Yaxın zamanda Cənubi Asiya regionunda genişmiqyaslı hərbi toqquşmaların baş verməsinin şahidi ola bilərik. Belə ki, son proseslər fonunda Pakistan ilə Hindistan arasında gərginlik daha da intensivləşir. Nüvə və kontinental ballistik silahlara malik olan hər iki ölkə ordusunu hazırlıq vəziyyətinə gətirib. Hər iki ölkə quru sərhədlərini və hava məkanlarını bir-birinə bağlayıb. Bəzi qlobal media qurumlarının son məlumatlarına görə, Hindistan Ərəb dənizində INS Vikrant təyyarədaşıyan gəmisini yerləşdirib, Pakistan isə həmin bölgədə raket sınaqlarına başlayıb. Bununla yanaşı, Hindistan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələri də həm quruda, həm də dəniz sularında Pakistanın sərhədinə yaxın olan ərazilər üzərində təlimlərə cəlb olunub. Pakistan tərəfi də eyni addımları atır.

### Əks tədbirlər

Aprelin 22-də Hindistanın Camau və Kəşmir bölgəsində baş verən hadisələrdən sonra İslamabad və Yeni Dehli münasibətlərin gərginləşməsi fonunda bir-birinə qarşı əks tədbirlər görməyə başlayıblar. İlk növbədə Hindistandan Pakistan vətəndaşları, Pakistandan isə Hindistan vətəndaşları deportasiya olunmağa başlanılıb. Kəşmir istiqamətində bütün sərhəd keçid məntəqələri bağlanılıb. Hindistan, Pakistanla 1960-cı ildə imzalanmış "Hind Su"ları müqaviləsini də dayandırıb. Pakistan hökuməti də İslamabadda olan Hindistanın Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələri üzrə müdafiə məsləhətçilərini "persona non-grata" elan edərək, onları ölkəni tərk etməyə məcbur edib. Həmçinin İslamabaddakı Hindistan səfirliyinin işçi sayının 30 nəfərə qədər azaldılmasını tələb edilib və ikitərəfli ticarət tamamilə məhdudlaşdırılıb, o cümlədən Hindistan mallarının Pakistan vasitəsilə üçüncü ölkələrə daşınması da qadağan edilib. Aprelin 24-də gecə saatlarında baş nazir Şahbaz Şərifin başçılığı ilə nazirlər kabinetinin iclası keçirilib - iclasda bir sıra əks tədbirlər müzakirə olunub. Pakistan tərəfi Yeni Dehlinin "Hind su" müqaviləsini dayandırmasına cavab olaraq vaxtilə Hindistanla imzalanan "Şimla və Daşkənd" razılaşmalarını dayandırmasını nəzərdən keçirir. Eyni zamanda, Pakistanın müdafiə naziri Xavaca Asif bəyan edib ki, Pakistan öz vətəndaşlarının təhlükəsizliyini qorumaq üçün istənilən zəruri addımları atmağa hazırdır.

### Müharibə ehtimalı artır

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Avrasiya və Şərqi Asiya regionu üzrə tədqiqatçısı Vüsal Quliyev "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, hər iki ölkənin ordularını yüksək hazırlıq vəziyyətinə gətirməsi, sərhəd xəttində atışmaların baş verməsi barədə iddialar və qarşılıqlı ittihamlar regional təhlükəsizliyə ciddi təhdid yaradır. "İki nüvə ölkəsi olan Pakistan və Hindistan arasında dörd dəfə açıq müharibə və bir sıra lokal qarşıdurmalar baş verib. Kəşmir münaqişəsi isə onların ikitərəfli münasibətlərində əsas gərginlik nöqtəsi olaraq qalır. Siyasi, etnik və dini aspektləri ilə son dərəcə mürəkkəb olan bu mübahisəli bölgə, tərəflərin hərbi-strateji diqqət mərkəzində qalmağa davam edir. Hazırkı proseslər də məhz bu həssas bölgədə baş verən hadisələrlə bağlıdır. Tərəflərin hərbi hərəkətliliyini artırması və informasiya savaşını gücləndirməsi, xüsusilə ictimai rəyə təsir edən ritorikanın sərtləşməsi, münaqişənin eskalasiya riskini artırır. Hər iki ölkənin nüvə silahına sahib olması, tam miqyaslı bir müharibənin fəlakətli nəticələri olacağını deməyə əsas verir. Bu, tərəfləri daha ehtiyatlı davranmağa sövq edə bilər", - deyə V.Quliyev əlavə edib ki, hazırda iki ölkə arasında daha çox lokal toqquşmaların və sərhəd insidentlərinin yaşanması ehtimalı var: "Əlbəttəki, bu tip insidentlər genişmiqyaslı müharibəyə zəmin yarada bilər, lakin beynəlxalq güclərin vasitəçiliyi ilə tərəflərin danışıqlara yönəlməsi də mümkün ssenaridir. Bu mənzərə fonunda, yaxın günlərdə tammiqyaslı müharibə ehtimalı hələlik yüksək deyil, lakin vəziyyətin riskli və dəyişkən xarakter daşıması Cənubi Asiya üçün narahatedici bir dönəmin başlandığını göstərir".







### Əgər müharibə baş verərsə, bu, regiona necə təsir göstərəcək?

V.Quliyev vurğulayıb ki, növbəti Pakistan-Hindistan müharibəsi Cənubi Asiya regionu üçün fəlakətli nəticələrə səbəb olacaqdır. Onun sözlərinə görə, müharibənin baş verməsi regionda siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül və ağır sosial böhrana gətirib çıxaracaq. Bu da bütün region ölkələrinin inkişafını on illərlə geri salacaq. "Növbəti müharibə, region ölkələrinin digər dövlətlərlə, xüsusən də böyük güclərlə olan münasibətlərinə təsir edə bilər. Beynəlxalq güclər münaqişəyə müdaxilə etməyə çalışa bilər ki, bu da regional dinamikanı daha da mürəkkəbləşdirə bilər". Tədqiqatçı, həmçinin bildirib ki, Pakistan-Hindistan qarşıdurması təkcə iki dövlətin hərbi-siyasi problemi kimi qiymətləndirilməməlidir. "Bu, bütün Cənubi Asiya üçün ciddi və uzunmüddətli fəsadlar doğura biləcək, qlobal sabitliyə belə təsir edə biləcək bir geosiyasi ssenaridir. Belə bir münaqişə, regionda mövcud olan çoxtərəfli əməkdaşlıq formatlarının fəaliyyətini tamamilə iflic edə və regional inteqrasiya təşəbbüslərini sonlandıra bilər. Qlobal sülh və təhlükəsizlik baxımından Cənubi Asiyada sabitliyin qorunması, yalnız regionun deyil, bütövlükdə beynəlxalq nizamın davamlılığı üçün də həyati əhəmiyyət kəsb edir. Buna görə də, bütün tərəflərin gərginliyi azaltmaq və diplomatik yollarla həll tapmaq üçün səylərini artırması son dərəcə vacibdir".

***Yunis ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# ŞƏNBƏ ÜÇÜN NƏZM





**Anamdan sonra**

Anamdan sonra,
Çantasını açdım
İçindən bir kağız parçası tapdım.

Alacaqları varmış,
Baxdım ki,siyahı yazmış...
1. Corab
2.Ayaqqabı...
"Balam"a dəri
Ozümə adi...
Səndən sonra
aldım,anam,
Corab da, dəri ayaqqabı da,
Amma həmişə üşüdü ayaqlarım
İyulda da, avqustda da.

Həyatımı soruşsan,
Səndən sonra ...
mənim həyatım
Sənin ayaqqabın kimidir,
Hər şey adi!

**Uzaqlar**

Bilsəydim, çoxdan gedərdim.
Nə gözəlmiş, məni sənə yaxın edən uzaqlar.
Deyirdin, qiymətli olur,
Ara-sıra, qəfil gəlib, qəfil gedən qonaqlar.

Sözünü yerə salmadım,
Səssiz olur, əziz olur, sözə baxan uşaqlar.
Mən də getdim, elə getdim,
Barmağımın uclarında hələ də küt ağrı var.

Səs etmədən,
Ayrılıqdan söz etmədən,
Gurultusuz,
Qırıb-töküb yox etmədən.
Nəyim varki, o komada
mənim səndən başqa, onsuz.
Uşaqlardan söz açmışkən,
Sən mənimlə çox oynadın.
Gah oynatdın, gah da atdın
Daha sənlə oynamıram.

Oyun bitib, mən getmişəm.
Mən gedəndə yuxudaydın,
Oyatmadım.
Oyananda ağlamısan,
Oyuncağı axtarmısan.
Sinəmdədir,
gizləmişəm.
Mən hamıdan, mən hər şeydən
gizlənmişəm.

Bilsəm,elə ən birinci,
Elə səndən gizlənərdim.
Bilsəydim,çoxdan gedərdim.
Ən azından bilərdim ki,
Məni gəzən, mənim üçün qəribsəyən bir uşaq var.

Nə gözəlmiş, məni sənə yaxın edən uzaqlar,
Nə gözəlmiş, məni sənə yaxın edən uzaqlar!!!

**Nəzakət xala,**

Uşaq vaxtı qapını döyüb qaçmışdım.
Sənsə hiddətlənib, qarğış etmişdin
"Gözün qapıda qalsın, bala"

Mən o vaxtdan qorxub elə gizlənmişdim,
Ən çox ürəyim əsmişdi, deyə,
ən çox onu gizləmişdim.
Elə çırpınırdı,
elə bilirdim sinəmdən çıxacaq....
Balaca ovcumu köksümə sıxıb
Ürəyimi bərk-bərk bağlamışdım.

Sonra böyüdüm...
"O" gəldi.
Döydü, açdım,qaçdı.

Gözüm yolda qaldı.
Nəzakət xala,
Göylərdən məni görürsənsə,
Bağışla!

Ona denən, qayıtsın.
Qarşıdan qış gəlir.
Üşüməsin...
Gəlsin, girsin ürəyimə
Qapını bağlasın!

**Allaha təşəkkür**

Sən mənim Allaha təşəkkürümsən,
Yaşamaq sevincim, təbəssümümsən
Dünəni dəyişmək əlimdə deyil,
Ağlayan gözümə dolan gülüşsən.

Nə yaxşı gəlmisən, nə xoş gəlmisən,
Qurban qədəminə, nə gec gəlmisən,
Yalquzaq yıxılıb, qalxıb, ilbəil,
Necə gözləmişəm səni, bir bilsən

Sən, nə gözəl hədiyyəsən, bilirsən?
Son nəfəsdə yetişmisən, gəlmisən
Gətir qulağını, gəl, bəri əyil
Heç kim eşitməsin, bilməsin kimsən
Sən mənim Allaha təşəkkürümsən

**Sənsiz olmur**

Darıxıram, sənsiz olmur.
Olur, amma sən bilmirsən
Sənsiz olmaq, necə olur!

Necə deyim anlayasan?
Bax məsələn, yağsız-duzsuz yemək kimi.
Susuz balıq,
Labirint yol,
Kimsəsiz ev,
Tərk edilmiş yazıq qoca,
Yetim qalmış uşaq kimi.
Belə olur, sənsiz olmaq.

Bax məsələn, bu aralar
Aynadan da yan gəzirəm,
Utanıram gözlərimlə üzləşməyə
Mən, o qədər sən olmuşam
Gecikmişəm səni mənə dəyişməyə.

Sən getmisən, yerin bəlli
Mən hardayam? Məni gətir
Bir yol göstər, məni tapıb gətirməyə.

Nə gülüşüm həmin deyil,
Nə yerişim həmin deyil,
Səmtimi də itirmişəm,
Hara gedim, kimə gedim?
Əynim nazik, dolaşıram küçələri
Sabah-axşam, veyil-veyil

Qollarını aparmısan,
Qoy üşüyüm.
Yatağı da yığmamışam, səndən sonra
Buzdur yorğanım-döşəyim,

Neyləyirəm, mən o evi
Divarlar üstümə gəlir,
Mən ki, sənə sığınmışdım
Sən idin evim-eşiyim

Hər gecənin sabahı-var,
istəmirəm.
Sənsiz gələn sabahları,
istəmirəm.
Sevdiyimlə sınanmağı,savabları
istəmirəm.

Günahları istəyirəm
Yetər ki,gəl.
Günahınla, savabınla
Yetərki,gəl.
Darıxıram, sənsiz olmur.

Olur, amma.
İndi bildin, sənsiz olmaq, necə olur?
Belə olur, sənsiz olmaq.
Olsa-olsa, belə olur!

***Günel Balakişi***

# Məhəmməd Füzuli Medalı təsis edildi



Azərbaycan Yazıçılar Birliyi katibliyinin 3 saylı qərarı ilə 2025-ci ildən etibarən Məhəmməd Füzuli Medalı təsis edilib. Medalın əsasnaməsində yazıldığı kimi bu medal yalnız əcnəbi şair və yazıçılara "yüksək ədəbi uğurlara görə" təyinatı ilə veriləcək. Nominantlar həm öz ölkəsində, həm də xaricdə təsdiq və təqdir olunan yüksək ədəbi uğurları olan ədiblərin, eləcə də Azərbaycan ədəbiyyatını, Azərbaycan həqiqətlərinin öz ölkəsində və dünyada təbliği, tərcüməsi sahəsindəki fəaliyyətinə görə fərqlənən ədəbiyyat xadimlərinin sırasından seçiləcək.

Medal bürüncdən hazırlanıb, mərkəzində Məhəmməd Füzulinin barelyefi əks olunub. Medal üçün xüsusi hazırlanmış diplom təqdim olunacaq.

Məhəmməd Füzuli medalının təqdimetmə komissiyasının rəhbəri beynəlxalq məsələlər üzrə katib Səlim Babullaoğludur. O, mətbuata açıqlamasında bildirib ki, ötən il dahi şairimiz Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzuli ili" elan olunmuşdu. İl çərçivəsində həm ölkə səviyyəsində, həm beynəlxalq səviyyədə çoxlu tədbirlər keçirildi. Çoxsaylı kitablar, tədqiqatlar çap edildi, konfrans və simpoziumlar baş tutdu. "Füzuli ili"nin məntiqi sonluğu kimi təsis edilən medal il ərzində 3-dən artıq olmayaraq əcnəbi ədibə veriləcək.








Azərbaycan Yazıçılar Birliyi katibliyinin qərarı ilə bu il Məhəmməd Füzuli medalı 2 nəfərə - böyük qazax şairi, ədibi, mütəfəkkiri Oljas Suleymenova, görkəmli rumın şairi və alimi Mihay Eminesku Akademiyasının prezidenti İon Deakoneskuya veriləcək. Oljas Suleymenovu ədib kimi Azərbaycan ictimaiyyəti yaxşı tanıyır, onu Azərbaycanda elə öz klassiklərimiz qədər sevirlər, eyni zamanda ölkəmizin böyük dostudur. Eləcə də bu il onun məşhur "Az I Ya" əsərinin 50 illiyi qeyd olunacaq.

İon Deakonesku həm öz ölkəsində, həm də Şərqi Avropada tanınmış şair, ədəbiyyatçıdır, ölkəmizin dostudur. Rumıniyada keçirilən bir çox ədəbiyyat tədbirlərində zaman-zaman ölkəmizin və ədiblərimizin təmsil olunmasına şərait yaradıb. Türklərə, Azərbaycana və azərbaycanlılara hörmətlə yanaşır. S.Babullaoğlu bildirib ki, bu ilin may ayında medallar sahiblərinə çatacaq və bu barədə mətbuata məlumat veriləcək.

***Yeganə BAYRAMOVA***

# Beyin, zəka məhsulu...

## Əqli mülkiyyət bəşəriyyət üçün əvəzolunmaz dəyərdir!



Əqli mülkiyyət dünya ictimaiyyətinin böyük maraq göstərdiyi məsələlərdən biridir. "Bütün incəsənət əsərləri və ixtiralar insan zəkasından yaranır. Bunlar insanın layiqli həyatı üçün təminat mənbəyidir. İncəsənət və ixtiraların bütün növlərinin etibarlı qorunması dövlətin borcudur". Doktor Arpad Boqşa məxsus olan bu əhəmiyyətli sözlər BMT-nin xüsusi təşkilatı olan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Cenevrədə yerləşən mənzil-qərargahının günbəzində yazılıb. Yazı mahiyyətcə və fəlsəfi baxımdan parlaq və anlaşıqlı şəkildə əqli mülkiyyətin müasir dünyada rol və əhəmiyyətini təsvir edir.

**"Biliklər dövranı"**

Əqli mülkiyyət biliklərlə sıx təmasdadır: biliklərdən əmələ gəlir və bilik mənbəyinə çevrilir. Daha dəqiq desək, əqli mülkiyyət biliklər dövranının eyni zamanda xammalıdır və onun məhsuludur. "Biliklər dövranı" maraqlı prosesdir və burada başlıca məqam insanın əqli fəaliyyətidir. Bu fəaliyyətin nəticələri beyin, zəka məhsulu olduğuna görə, ideal xarakter daşıyırlar.

Yeri gəlmişkən, bu gün dünya ölkələrində "Beynəlxalq əqli mülkiyyət günü" kimi qeyd edilir. Əqli mülkiyyətin qorunması və bunun üçün qanuni bazanın yaradılması cəmiyyətin zəruri sosial tələbi olub, qədim tarixə malikdir. Bu əlamətdar günlə bağlı keçirilən tədbir, görüş, dəyirmi masa, konfrans və simpoziumların əsas məqsədi əqli mülkiyyətin, müəllif-hüquq mədəniyyətinin formalaşdırılmasına dəstək verməkdir. Hələ qədim dövrlərdən yazıçı və şairlər öz əsərlərinin başqası tərəfindən mənimsənilməsinin qarşısını almağın yollarını axtarırdılar. Bəşəriyyətin sonrakı inkişaf mərhələlərində baş vermiş bütün innovativ yeniliklər, ideya, ixtira və kəşflər də yaradıcı əməyin məhsulu kimi intellekt sahibinin adına nüfuz gətirib.

Beynəlxalq aləmdə ölkələrin sosial-iqtisadi inkişafına əqli mülkiyyət məhsullarının müsbət təsiri son qloballaşma dövründə daha da artmaqdadır. Artıq dünyada baş verən proseslər dövlətlərin əqli mülkiyyətlə bağlı məsələlərə xüsusi diqqət yetirməsinə səbəb olub. Bu baxımdan hər bir ölkədə əqli mülkiyyəti qorumaq, müdafiə etmək və ümumiyyətlə əqli mülkiyyət hüquqlarını idarə etmək məqsədi ilə hüquqi alətlər, vasitələr yaradılır, bu sahədə davamlı tədbirlər görülür.

Azərbaycan da əqli mülkiyyət hüquqlarına önəm verən ölkələrdən biridir. Dövlət başçısının göstərişi ilə şəffaflığın, səmərəliliyin və cavabdehliyin təmin olunması məqsədilə Əqli Mülkiyyət Agentliyi yaradılıb. Onun mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini, həm də sənaye mülkiyyəti sahəsini əhatə edir.

***Yeganə BAYRAMOVA***

# Əməyin mühafizəsi...

Müasir dünya təcrübəsindən bəllidir ki, inkişaf etmiş bütün ölkələrdə vətəndaşların işçi olaraq hüquqlarının qorunması mühüm amillərdən sayılır. Belə ki, insanların əməyinin mühafizəsi, onların sağlam və təhlükəsiz iş şəraitində işləməsi sosial siyasətin əsas prioritetlərindən biridir. İnsan amilinin uca tutulduğu ölkələrdə bu prioritetlərin labüdlüyü çoxdan təsdiqlənib.

**Əməyin mühafizəsi nədir?**

Əməyin mühafizəsi dedikdə istehsal prosesində işçilərin təhlükəsizliyini təmin edən iqtisadi, təşkilati, texniki və hüquqi tədbirlərin məcmusu başa düşülür. Müasir dövrdə insanların əmək fəaliyyəti ən mürəkkəb istehsal alət və vasitələrdən istifadə ilə əlaqədardır. Bu zaman bədbəxt hadisələrə və digər ağır nəticələrə yol verməmək üçün işçilər təhlükəsizlik texnikası ilə tanış edilməli, müasir şəraitinə uyğun əmək təhlükəsizliyi qaydaları yaradılmalı, əməyin mühafizəsi üzrə münasibətləri nizama salan yeni normalar işlənib hazırlanmalıdır. İstehsalatda əməyin mühafizəsi müəssisə rəhbərinə və digər vəzifəli şəxslərə həvalə olunur. Onlar baş verən bütün pozuntulara görə məsuliyyət daşıyırlar.

**Dünyanın 100-dən çox ölkəsində...**

Aprelin 28-i Ümumdünya Əməyin Mühafizəsi Günüdür. Beynəlxalq Əmək Təşkilatının (BƏT) təşəbbüsü ilə 2003-cü ildən elan olunan bu gün hazırda dünyanın yüzdən çox ölkəsində qeyd edilir. Ümumdünya Əməyin Mühafizəsi Gününün təsis olunmasında məqsəd cəmiyyətin diqqətini işçilərin sağlam və təhlükəsiz əmək şəraiti ilə təmin olunması, istehsalat qəzalarının qarşısının alınması üçün profilaktik tədbirlərin görülməsi məsələlərinə cəlb etməkdir.




**Dünyada hər il 2,34 milyon insan...**

BƏT-in məlumatına görə, hər il dünyada istehsalat sahəsində 339 milyon bədbəxt hadisə baş verir. Dünyada hər il istehsalatla əlaqəli bədbəxt hadisələr, peşə xəstəlikləri nəticəsində isə təxminən 2,34 milyon nəfər həlak olur. Bu, hər gün orta hesabla 6 min insan deməkdir. Hər il 160 milyondan çox insan müxtəlif dərəcəli bədən xəsarəti alır və ya peşə xəstəliklərinə tutulur. İstehsalat qəzaları nəticəsində dünya üzrə ümumi daxili məhsulun 4 faizinin və ya 2,8 trilyon ABŞ dollarının itirilməsi ilə nəticələnir.

Bütün bunlar dünyada əməyin mühafizəsini aktuallaşdıran problemlər kimi çıxış edir. BƏT-in qəbul etdiyi və dövlətlərin qoşulduğu konvensiyaların böyük əksəriyyəti məhz əməyin təhlükəsizliyi, layiqli əməyin təmin olunması məsələlərini əhatə edir.

Əməyin mühafizəsi ölkəmizdə də sosial siyasətin əsas məqsədlərindən biridir. Azərbaycan 1992-ci ildən bəri üzvü olduğu BƏT- in bu sahədə olan bütün konvensiyalarına qoşulub. Daha dəqiq ifadə etsək, ölkəmiz tərəfindən BƏT-in əsas işçi hüquqları ilə bağlı 58 konvensiyası, o cümlədən əməyin mühafizəsi və təhlükəsizliyinə dair 21 konvensiyası ratifikasiya olunub. 2004-cü ildən etibarən isə Azərbaycanda Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd olunur.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4949**
**Sifariş: 847**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova